RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 178 (8494) ŞƏNBƏ, 5 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# BMT İlham Əliyevin qlobal təşəbbüslərini təqdir edir

## Prezidentin pandemiya ilə mübarizədə xüsusi sessiyanın keçirilməsi təklifi ümumi öhdəliyi səfərbər etmək baxımından etibarlı platforma hesab olunur

**"Biz Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycana bu çox mühüm sessiyanın keçirilməsinə təkid etdiyi üçün, BMT Baş Assambleyasına isə sessiyanın keçirilməsinə razılıq verdiyi üçün minnətdarıq. Baş Assambleyanın pandemiyaya həsr olunan xüsusi sessiya keçirməsi ilə bağlı təklif COVID-19-a qarşı qlobal öhdəliyi səfərbər etmək baxımından etibarlı platformadır".**
**Bu sözləri BMT Baş Assambleyasının sədri Ticcani Məhəmməd-Bande Baş Assambleyanın COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr edilmiş 31-ci xüsusi sessiyasının təfərrüatları üzrə qətnamə layihəsi ilə əlaqədar keçirilən ilk qeyri-rəsmi məsləhətləşmə zamanı bildirib.**

### İlham Əliyevin həmrəylik çağırışı

Ticcani Məhəmməd-Bandenin sözlərinə görə, təşkilatın koordinatorları bəzi üzv dövlətlərin əməkdaşlığı və dəstəyi ilə danışıqlar üçün möhkəm zəmin yaradan mühüm layihə hazırlayıblar. Ona görə də hesab edilir ki, xüsusi sessiya daha çox sayda dünya liderlərinin pandemiyaya nəticəyönümlü reaksiya verməsinə şərait yaradacaq. Bu isə, öz növbəsində, pandemiyaya və onun insanların həyatına və həyat şəraitinə mənfi təsirlərinin azaldılmasına qarşı mübarizədə Baş Assambleyanın qlobal bir tərəfdaş kimi rolunu daha da gücləndirəcək. Həmçinin xüsusi sessiya beynəlxalq ictimaiyyətin pandemiyaya qarşı əlaqələndirilmiş şəkildə fəaliyyət göstərməsi üçün gözəl imkan olacaq. Ticcani Məhəmməd-Bande vurğulayıb ki, mövcud vəziyyət COVID-19 virusuna qalib gəlmək üçün birlikdə işləməyi və çoxtərəfli əməkdaşlığı gücləndirməyi zəruri edir.

Əlbəttə ki, BMT Baş Assambleyasının sədri Ticcani Məhəmməd-Bandenin minnətdar olduğu siyasətçilər sırasında Azərbaycan Prezidenti cənab İlham Əliyev də var. Çünki cənab İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi hələ aylar öncə bu təşəbbüslə çıxış etmişdi.

Öncə onu vurğulayaq ki, məhz dünyanın yeni çağırışlarla üz-üzə qaldığı dönəmdə cənab İlham Əliyev çox əhəmiyyətli təşəbbüslər və ideyalarla çıxış edib, mühüm praktik addımlar atıb. Qoşulmama Hərəkatının sədri olan Prezident İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də təşkilatın Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə görüşü təşkil edilib. Bu tədbirdə Qoşulmama Hərəkatına üzv dövlətlərlə yanaşı, BMT-nin Baş katibi, BMT Baş Assambleyasının prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Afrika İttifaqı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatların yüksək çinli nümayəndələri də iştirak ediblər.

Cənab İlham Əliyev zirvə görüşündə xüsusi əhəmiyyət daşıyan çağırışlar etdi və mesajlar verdi. Qeyd etdi ki, belə çətin gündə özünə qapanmaq lazım deyil, cəsarət toplayaraq irəli baxmaq, vəziyyətdən çıxış yolları axtarmaq lazımdır.

*Ardı 3-cü səh.*

# ADA-da Azərbaycanın iqtisadiyyatı üçün vacib sahələr üzrə kadrlar hazırlanacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 4-də ADA Universitetinin iki yeni korpusunun açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısı və birinci xanım universitetin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış olublar.

ADA Universitetinin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yeni korpuslarda yaradılan şərait barədə məlumat verdi. Bildirdi ki, yeni korpusların inşası 2016-2019-cu illər ərzində aparılıb. Yeni korpuslarda təlim-tədrisin ən müasir səviyyədə aparılması üçün bütün imkanlar var. Burada 535 nəfərlik akt zalı, 42 sinif otağı, 18 qrup otağı, 3 laboratoriya, kitabxana, kafe müəllim və tələbələrin ixtiyarına veriləcək.

*Ardı 2-ci səh.*

## Avropa Şurasının rəhbərliyinə Ermənistanın işğal etdiyi ərazilərdə sudan ekoloji terror vasitəsi kimi istifadə etməsinə dair məktub ünvanlanıb

**Təcavüzkar Ermənistan işğal etdiyi ərazilərimizdəki su ehtiyatlarından cəbhə xəttinə yaxın bölgələrdə yaşayan azərbaycanlı əhaliyə qarşı ekoloji terror vasitəsi kimi istifadə edilməsini daha da gücləndirir. Bunu nəzərə alaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Avropa Şurasının rəhbərliyinə Ermənistanın bu məkrli siyasətini ifşa edən məktub ünvanlayıb.**

AZƏRTAC xəbər verir ki, məktubda Ermənistanın işğalı altında olan yuxarı Qarabağ bölgəsindən axan çayların qarşısını məqsədli şəkildə süni bəndlərlə kəsməsi, eləcə də Sərsəng su anbarından aşağı Qarabağ istiqamətində qanunsuz kanalların inşa edilməsi məsələləri öz əksini tapıb.

Vurğulanıb ki, təcavüzkar Ermənistan su resurslarını təzyiq vasitəsi kimi istifadə edərək çayların aşağı axarlarında məskunlaşmış əhalinin təsərrüfatla məşğul olmasını faktiki mümkünsüz etmişdir. Belə ki, qış aylarında xüsusilə Sərsəng su bəndinin qarşısı açılaraq təsərrüfata yararlı torpaqlar süni sellə eroziyaya məruz qoyulur. Yay aylarında - təsərrüfat suyuna ehtiyacın ən çox olduğu dövrdə təcavüzkar Ermənistan suyun qarşısını kəsərək süni quraqlıq yaradır və beləliklə, kənd təsərrüfatına, eləcə də flora və faunaya ciddi zərbə vurur.

Məktubda Avropa İnsan Haqları Məhkəməsinin 2015-ci il "Çıraqovlar və digərləri Ermənistana qarşı" məhkəmə işinin yekun qərarına və Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) 2016-cı il tarixli, 2085 saylı "Cəbhə bölgələrindəki azərbaycanlı əhali sudan məqsədli şəkildə məhrum edilir" başlıqlı qətnaməsinə istinad edilərək, Ermənistanın beynəlxalq hüququn norma və prinsiplərini kobudcasına pozması ifşa edilib.

Son olaraq məktubda AŞ PA baş verənləri yaxından izləməyə, eləcə də Ermənistanın bütün bölgəni humanitar və ekoloji fəlakətə aparan bu məkrli davranışlarına dərhal son qoyması üçün təxirəsalınmaz addımlar atmağa çağrılıb.

## Dövlətin tədbirlər planı effektiv nəticələrini verir

### Tendensiya bu cür davam edərsə, qısa zamanda normal həyata qayıdacağıq

İndi dövlətləri, xalqları maraqlandıran bir əsas ortaq problem var. İnsanoğlu yalnız bir xəstəliklə mübarizəyə qalxıb, savaş aparır: ölkə, dövlət, sərhəd, millət tanımayan taclı düşmənlə - yeni tip koronavirusla.

Aylardır dünya tibbi, elm adamları bu yeni bəlanı "susdurmaq" üçün səfərbər olublar. Dəhşətli mərəzdən qurtulmaq üçün bəşəriyyət peyvəndin hazırlanıb istifadəyə verilməsini səbirsizliklə gözləyir. Artıq bir neçə aydır müxtəlif ölkələrdə peyvəndin hazırlanması ilə bağlı ümidverici siqnallar da gəlməkdədir.

Azərbaycan da hazırda bir neçə şirkətlə COVID-19-a qarşı peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar fəal iş aparır. Prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışında çıxışı zamanı respublikamızın bu peyvəndi əldə edən birinci ölkələr sırasında yer alacağına ümidvar olduğunu bildirib.

"Biz artıq bir müddətdir ki, bu məsələ ilə əlaqədar çox fəal iş aparırıq. Ancaq burada əsas şərt bu peyvəndin bütün sınaq mərhələlərindən keçməsidir. Həkimlər yaxşı bilirlər ki, istənilən yeni peyvənd bir neçə mərhələdən keçir və yalnız ondan sonra bazara çıxarılır, insanların vaksinasiyası üçün istifadə olunur. Ona görə bütün mərhələlər, şirkətlərin apardığı bütün araşdırmalar öz nəticəsini verəndən, bütün sınaq testləri və beynəlxalq sertifikatlaşdırma aparılandan sonra biz bu peyvəndi ölkəmizə gətirəcəyik və ümid edirəm, ondan sonra demək olacaq ki, bu dəhşətli vəziyyət arxada qalıb. Hesab edirəm ki, biz o vaxta qədər öz addımlarımızı mövcud vəziyyətə uyğun atmalıyıq", - deyə dövlət başçısı qeyd edib.

*Ardı 4-cü səh.*



## Pambıq tarlaları bol məhsuldan xəbər verir

Ölkəmizdə aqrar sektorun inkşafına dövlət qayğısının müsbət nəticələri Ağcabədi rayonunun timsalında da özünü qabarıq göstərir. Qabaqcıl təcrübənin, mütərəqqi texnologiyaların bacarıqla tətbiq edilməsi sayəsində Ağcabədi kəndlisi son illər böyük nailiyyətlər qazanır, ölkənin ərzaq təhlükəsizliyinin təminatına sanballı töhfələr verir.

Prezident İlham Əliyevin ənənəvi kənd təsərrüfatı sahələrini inkişaf etdirmək, bu sahədə əvvəlki şöhrəti qaytarmağa nail olmaq barədə tapşırıq və tövsiyələri rayonumuzun kənd əməkçilərinin fəaliyyətinə yeni istiqamət vermiş, mövcud imkan və ehtiyat mənbələrinin səfərbər edilməsini şərtləndirmişdir. Dövlət başçısının tövsiyələrinə məsuliyyətli münasibətin, rayonda həyata keçirilən məqsədyönlü təşkilat, təsərrüfat tədbirlərinin nəticəsi göz qabağındadır. Rayonda kənd təsərrüfatı məhsullarının istehsalı ildən-ilə artmaqdadır. Bu il taxılçılar əsl fədakarlıq nümunəsi göstərmişlər. 28324 hektar sahədən 105,5 min ton taxıl biçilmişdir.

*Ardı 5-ci səh.*

## Paşinyan rejimi faşizmə xidmət edir

### Terrorçuya ehtiram göstərmək Ermənistanın dövlət siyasətidir

**Ermənistanın son aylardakı təxribat xarakterli addımları bir daha bu ölkənin faşizm ideologiyasına xidmət etdiyini göstərdi. Mövcud hakimiyyətin faşizm sevgisinin köklərinin nədən qaynaqlandığı aydın şəkildə bəlli oldu.**

O da məlum oldu ki, ermənilər tərəfindən Böyük Vətən müharibəsi zamanı faşizm tərəfində döyüşənlərin sayı kifayət qədər olub və onların nəsillərinin davamçıları indi Ermənistana rəhbərlik edirlər. Bu sırada keçmiş daşnak, "Njde" ləqəbli Qaregin Ter-Arutyunyanla yanaşı, Ermənistanın baş naziri Nikol Paşinyanın babası da olub.

Xatırladaq ki, vaxtilə işğalçı ölkənin sabiq prezidenti S.Sarkisyan Xocalı soyqırımını törətdikdən sonra deyirdi: "Xocalı hadisəsinədək azərbaycanlılar fikirləşirdilər ki, biz mülki əhaliyə əl qaldırmayacağıq - biz bu stereotipi dağıda bildik". İndi isə baş nazir Paşinyan başqa bir stereotipi dağıdır - faşist ideologiyasına meydan açır. Bu isə o deməkdir ki, Ermənistanda hakimiyyətdə kimlərin olmasından asılı olmayaraq, Njde və Dro kimi cinayətkar əcdadlarının yolu ilə gedirlər.

Paşinyan öz sələflərinin siyasətini davam etdirərək, faşistlərin qəhrəmanlaşdırılmasına bəraət qazandırır. Njde, Dro kimi faşistlər Ermənistanda qəhrəmanlaşdırılır, bu ölkədə antibəşəri fəaliyyət dövlət siyasəti səviyyəsində icra edilir. Artıq bu gün hər kəsə aydındır ki, Ermənistan hakimiyyətində təmsil olunan bir çox yüksəkvəzifəli şəxslər faşistlərin nəsillərinin davamçılarıdır, onlar ailə bağları ilə faşizm ideyalarına sadiqdirlər və bu xislətləri ilə fəxr edirlər.

1956-cı ildə ölmüş Dronun cəsədinin qalıqlarını 2000-ci ildə Amerikadan gətirib Ermənistanda dəfn etmişlər. Yerevan küçələrindən biri onun adını daşıyır.

*Ardı 7-ci səh.*

# ADA-da Azərbaycanın iqtisadiyyatı üçün vacib sahələr üzrə kadrlar hazırlanacaq








*Əvvəli 1-ci səh.*

Sinif otaqları tərcümə sistemi, smart lövhə və digər zəruri tədris avadanlığı ilə təchiz olunub.

Bu korpuslarda server otaqları da mövcuddur. Server otaqlarından bütün tədris prosesləri dəstəklənir. Burada 42 otaqda smart-kodlar quraşdırılıb, avadanlıqlar, kompüterlər var. Bu avadanlıqlar vasitəsilə tələbələr həm onlayn şəkildə təhsil ala biləcəklər, yəni, müəyyən mühazirələr videoformatda təqdim olunacaq, həm də canlı dərslər keçiriləcək.

Yeni istifadəyə verilən korpusların birində ADA Universitetinin Dövlət və ictimai münasibətlər, Biznes-iqtisadiyyat fakültələri yerləşir. Təkcə bu korpusda 1500-ə yaxın tələbə, o cümlədən 45 ölkə vətəndaşı təhsil alır. İndiyədək ADA Universitetində 2000 diplomat və dövlət qulluqçusu təlim keçib.

Yeni inşa olunan digər korpusda isə ADA Universitetinin 2019-cu ildə fəaliyyətə başlayan kollec tipli ADA Məktəbi yerləşir. ADA Məktəbində 500-ə yaxın X və XI sinif şagirdi Azərbaycan və ingilis dillərində təhsil alır.

Dövlət başçısı və birinci xanım ADA Universitetinin kampusunda yerləşən parkda yaradılan şəraitlə də tanış oldular.



Bildirildi ki, ümumi ərazisi 4 hektardan artıq olan parkın əsas hissəsi yaşıllıq zonasıdır. Burada 280 bitki növü əkilib. Orijinal üslubda yaradılan bu istirahət məkanında təbii ekoloji mühit maksimum qorunub. Parkda göllər də yaradılıb.

Universitetin rektoru Hafiz Paşayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya bu ali təhsil müəssisəsinin gələcək iş planı barədə məlumat verdi.

ADA Universitetinin perspektiv planlarına gəldikdə qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari il fevralın 19-22-də İtaliya Respublikasına rəsmi səfəri zamanı humanitar və təhsil sahəsində əməkdaşlıq barədə müzakirələr aparılıb, sənədlər imzalanıb. Razılaşdırılıb ki, Bakıda İtaliya-Azərbaycan Universiteti təsis olunsun və bu təhsil ocağının yaradılması ADA Universiteti ilə birlikdə həyata keçirilsin.

Universitetin inkişaf planına uyğun olaraq yeni təhsil ocağının istiqamətləri hazırlanmış konseptual sənədlərdə öz əksini tapıb. Yeni universitetdə Azərbaycanın iqtisadiyyatı üçün vacib olan elektrik mühəndisliyi, su təsərrüfatı mühəndisliyi, nəqliyyat mühəndisliyi, kənd təsərrüfatı və qida biznesinə aid sahələr, arxitektura və dizayn peşələri, menecment, marketinq və digər sahələr üzrə kadrlar hazırlanacaq.

Beləliklə, ADA Universitetində təhsil infrastrukturunun modernləşdirilməsi konsepsiyası müasir trendləri əhatə etməklə gələcəyə istiqamətlənib.

## Azərbaycanın Müdafiə naziri Moskvada beynəlxalq toplantıda iştirak edib




Rusiya Federasiyasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov sentyabrın 4-də Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçı dövlətləri və Şanxay Əməkdaşlığı Təşkilatı üzv dövlətləri Müdafiə Nazirləri Şurasının Moskvada keçirilən növbəti iclasında iştirak edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda çıxış edən general-polkovnik Zakir Həsənov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin uzun illərdir davam etdiyini, bunun nəticəsində bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün düşdüyünü görüş iştirakçılarının diqqətinə çatdırıb.

Azərbaycanın Müdafiə naziri vurğulayıb ki, ərazilərimizin 20 faizinin MDB-nin üzvü olan bir dövlət tərəfindən işğalı faktı beynəlxalq hüququn norma və prinsiplərinə, o cümlədən bu birliyin normalarına və ruhuna ziddir.

Ermənistan tərəfinin Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi genişmiqyaslı təxribatın regional təhlükəsizliyə təhdid yaratdığını qeyd edən Müdafiə naziri, eyni zamanda, rəsmi Yerevanın Azərbaycanla MDB-yə üzv olan dövlətlər arasında münasibətlərə xələl gətirmək məqsədi güddüyünü də bildirib.

İclasın yekununda Böyük Vətən müharibəsində Qələbənin və İkinci Dünya müharibəsinin bitməsinin 75 illiyi ilə bağlı birgə bəyanat imzalanıb.

Bəyanatı imzalayan Müdafiə nazirləri bir sıra məsələlərə münasibət bildirməklə yanaşı, BMT-nin məqsəd və prinsiplərinə, qəbul edilmiş beynəlxalq hüququn normalarına, xüsusilə suverenlik və ərazi bütövlüyü prinsiplərinə sadiq qaldıqlarını təsdiqləyiblər.

## Rusiyanın hərbi gəmiləri Bakı limanını tərk edib



Azərbaycanın Xəzər dənizindəki ərazi sularında "Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində keçirilən "Dəniz kuboku" müsabiqəsində iştirak etmək üçün ölkəmizdə olan Rusiya Hərbi Dəniz Donanmasının (HDD) Xəzər flotiliyasının "Mahaçkala" və "Astraxan" kiçik artilleriya gəmiləri, "SB-738" xilasedici yedək gəmisi sentyabrın 4-də Bakı limanını tərk edib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.



## Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlıq məsələləri müzakirə olunub

**Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Qazaxıstanın ölkəmizdəki səfiri Serjan Abdıkarimov ilə görüşüb.**

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov ölkələrimiz arasında ümumi tarixi, mədəni, dini bağlara əsaslanan və yüksək səviyyədə inkişaf edən münasibətlərdən məmnunluqla bəhs edib. Müstəqilliyin ilk illərindən etibarən təməli Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev və Qazaxıstanın ilk Prezidenti-Elbası Nursultan Nazarbayev tərəfindən qoyulan dostluq və əməkdaşlıq münasibətlərinin hazırda hər iki dövlətin başçısı tərəfindən uğurla davam etdirildiyi qeyd olunub.

Tərəflər Azərbaycan ilə Qazaxıstan arasında siyasi, iqtisadi, ticarət, humanitar, mədəniyyət, elm, təhsil və digər sahələrdə inkişaf etməkdə olan münasibətlər, mövcud əlaqələrin daha da genişləndirilməsi imkanları ətrafında fikir mübadiləsi aparıblar.

İkitərəfli müstəvidə uğurla inkişaf etməkdə olan əməkdaşlıq münasibətləri ilə yanaşı, çoxtərəfli platformalarda, o cümlədən Türk Şurası, TRACECA və digər təşkilatlar çərçivəsində davam edən əməkdaşlıq və qarşılıqlı dəstək məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov bölgədə təhlükəsizliyə əsas təhdid olan Ermənistanın təcavüzkar siyasəti, o cümlədən Ermənistan tərəfindən Azərbaycan-Ermənistan sərhədində törədilən son hərbi təxribat, bölgədəki gərgin vəziyyət barədə həmsöhbətini məlumatlandırıb. Ceyhun Bayramov bölgədə davamlı sülh, təhlükəsizlik və rifahın təmin olunmasında yeganə yolun məhz BMT Təhlükəsizlik Şurasının qətnamələri, digər təşkilatların məlum qərar və sənədlərinin də tələb etdiyi kimi, işğalçı Ermənistanın silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsindən və yeddi ətraf rayonundan çıxarılmasının olduğunu qarşı tərəfin diqqətinə çatdırıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən səfir Qazaxıstanın Xarici İşlər nazirinin Ceyhun Bayramovu təyinatı münasibətilə təbrik etdiyini və nazirə fəaliyyətində uğurlar arzuladığını qeyd edib.

İkitərəfli əməkdaşlıq gündəliyində duran bir sıra məsələlərin həyata keçirilməsi üzrə mövcud əməkdaşlığın bundan sonra da yüksək səviyyədə davam etdiriləcəyindən əminlik ifadə olunub.

Ermənistan-Azərbaycan münaqişəsinə gəldikdə isə səfir Serjan Abdıkarimov Qazaxıstanın münaqişənin sülh yolu ilə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq və ATƏT-in Minsk qrupu çərçivəsində həllini dəstəklədiyini vurğulayıb.

Görüşdə tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Beynəlxalq Sosial Təminat Assosiasiyası Azərbaycanda sosial sahədə aparılan islahatları, əldə olunan uğurlu nəticələri yüksək dəyərləndirir




"Son illərdə özünüməşğulluq proqramı çərçivəsində 4 min nəfər əlilliyi olan şəxs öz ailə təsərrüfatını yaradıb. Bu sahədə, həmçinin əlilliyi olan şəxslərin əmək bazarına və kiçik biznesə çıxış imkanlarının artırılması, onlar üçün xüsusiləşdirilmiş peşəyönümü testləri, müasir modul təlim proqramları və peşə standartlarının hazırlanması məqsədilə işlər davam etdirilir".

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Beynəlxalq Sosial Təminat Assosiasiyasının (BSTA) prezidenti Yoakim Bröyer ilə videoformatda görüşündə bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, Azərbaycanda aparılan siyasətin əsas xəttinin vətəndaş rifahının təminatı olduğunu vurğulayan nazir Prezident İlham Əliyevin sosial-iqtisadi siyasətinin uğurlarını qeyd edib. O, əmək, məşğulluq və sosial müdafiə sahəsində ölkəmizdə aparılan son islahatları, e-texnologiyaların bu sahədə geniş tətbiqi işlərini diqqətə çatdırıb. DOST layihəsi, sosial ödənişlərdə artım dinamikası, pandemiya dövründə reallaşdırılan iqtisadi-sosial dəstək tədbirləri barədə məlumat verib. Bu tədbirlər sırasında sosial təminat növləri üzrə ödənişlərin davamlılığının da təmin edildiyini bildirib.

S.Babayev pandemiya dövründə sosial müdafiə və aktiv məşğulluq proqramlarının genişləndirilməsi sahəsində görülən işləri də qeyd edib. Əlilliyi olan şəxslərin peşə əmək reabilitasiyası məqsədilə görülən tədbirləri diqqətə çatdırıb. Nazir ötən dövrdə BSTA ilə müsbət əməkdaşlıq təcrübəsindən danışaraq gələcəkdə həmin təcrübənin uğurla davam edəcəyinə əminlik ifadə edib.

Y.Bröyer BSTA-nın Azərbaycanda sosial sahədə aparılan islahatları, əldə olunan uğurlu nəticələri yüksək dəyərləndirdiyini bildirib. O, pandemiya dövründə sosial təminatın əhalinin rifahında əhəmiyyətinin daha aydın şəkildə özünü göstərdiyini deyib. Ölkəmizdə də bu sahəyə xüsusi diqqət göstərilməsinin təqdirəlayiq olduğunu diqqətə çatdırıb. Y.Bröyer, həmçinin ölkəmizin islahatlar prosesində BSTA ilə mütəmadi əməkdaşlığını yüksək qiymətləndirib.

Görüşdə ötən ilin mayında BSTA-nın Avropa Regional Forumunun Bakıda yüksək səviyyədə keçirilməsindən razılıq ifadə olunub. Həmçinin Azərbaycanın dörd layihəsinin (özünüməşğulluq proqramı, ünvanlı sosial yardım və əlillik təyinatı üzrə e-sistemlər, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması tədbirləri) BSTA-nın xüsusi mükafat və təltiflərə layiq görülməsindən bəhs olunub. Həmin layihələr üzrə işlərin davam etdirildiyi qeyd edilib.

# Azərbaycan Prezidentinin köməkçisi Gəncədə din xadimləri ilə görüş keçirib



**Gəncə şəhərindəki İmamzadə dini kompleksində bir qrup din xadimi ilə görüş keçirilib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, ayrı-ayrı regionlardan olan din xadimləri, respublikanın müxtəlif məscidlərinin imamları iştirak ediblər.**

Görüşdə çıxış edən Anar Ələkbərov müstəqillik illərində dövlət-din münasibətlərinin yeni müstəvidə formalaşdığını, Azərbaycanda dövlət səviyyəsində dinə xüsusi diqqət göstərildiyini qeyd edib. Bildirib ki, ölkəmizdə din dövlətdən ayrı olsa da, dövlət daim bu sahəyə dəstək göstərir. Prezident İlham Əliyev, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu sahəyə xüsusi diqqət və həssaslıqla yanaşır. Qeyd olunub ki, Azərbaycanda dövlət-din münasibətləri, dinlərarası əlaqələr sağlam zəmin üzərində qurulub. Bu, dövlət siyasətinin əsas prioritet istiqamətlərindən biridir. Bu gün dünyanın bir çox ölkəsində dini zəmində zorakılığın, münaqişələrin şahidi olsaq da, Azərbaycan bu baxımdan nümunəvi ölkə kimi seçilir. Azərbaycanın çoxmillətli, çoxkonfessiyalı ölkə olduğu, bütün dinlərin, etnik qrupların nümayəndələrinin bir ailə kimi sülh, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşadığı qeyd edilib.

Bu sahədəki nailiyyətlərimizin dünya birliyində yüksək qiymətləndirildiyi, Bakıda dünya dini liderlərinin birinci və ikinci sammitlərinin keçirildiyi, 2017-ci ildə Azərbaycanda "İslam Həmrəyliyi ili" elan edildiyi, bütün bu kimi tədbirlərin dini tolerantlıq sahəsindəki uğurlarımızın təzahürü olduğu diqqətə çatdırılıb.

Anar Ələkbərov ölkəmizin demək olar ki, bütün bölgələrində, hər bir rayonunda məscidlərin inşa olunduğunu və ya bərpa edildiyini, yeni məscidlərin açıldığını bildirib. Bütün bunlar bir daha göstərir ki, dövlət siyasətində tarixi keçmişimizin unudulmaması, gələcək nəsillərin milli-mənəvi dəyərlərə daha çox bağlanması mühüm yer tutur. Son illər Azərbaycan və Şərq memarlığının nadir incilərindən olan Təzəpir, Bibiheybət, Əjdərbəy məscidlərində, İmamzadə dini kompleksində geniş tikinti və yenidənqurma işlərinin həyata keçirildiyi bildirilib. Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndində Prezident İlham Əliyevin tapşırığı ilə Şuşa məscidinin bənzəri olan məscidin tikilməsinin və uzun fasilədən sonra burada azan səsinin ucalmasının əlamətdar hadisə olduğu diqqətə çatdırılıb.

Məscidlərlə yanaşı, ölkəmizdə kilsələr, sinaqoqlar təmir edilir. Eyni zamanda Azərbaycanda dövlət qeydiyyatından keçən dini icmaların fəaliyyəti üçün şərait yaradıldığı, mövcud problemlərin həlli istiqamətində mühüm addımlar atıldığı bildirilib. Bu istiqamətdə ölkənin Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulanıb. Fond reallaşdırdığı layihələrlə müxtəlif xalqlar və dinlər arasında dostluq, həmrəylik kimi dəyərlərin bərqərar olmasına öz töhfələrini verməkdədir. Fondun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkəmizdəki məscidlərdə, kilsələrdə, sinaqoqlarda təmir-bərpa işləri aparılıb. Hazırda isə Heydər Əliyev Fondu tərəfindən Bakının Xəzər rayonunun Binə qəsəbəsində Möhsün Səlim məscidində təmir işləri aparılır, Şamaxı rayonundakı Pirsaat Baba ziyarətgahında yenidənqurma işləri həyata keçirilir, ziyarətgahın ərazisində yeni məscid binası inşa olunur. Həmçinin Şamaxıdakı Pir Ömər Sultan ziyarətgahında arxeoloji tədqiqatlar aparılıb və türbənin qorunub saxlanılması məqsədilə konservasiya işlərinin layihələndirilməsi davam edir. Şəki şəhərindəki Xan məscidində təmir-bərpa işlərinə başlanılıb, Qəbələ rayonunun Nic kəndində qədim alban kilsəsində yenidənqurma işləri aparılır, İsmayıllı rayonunun Lahıc qəsəbəsində Bədöyün məscidi əsaslı təmir olunur.

Görüşdə Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadənin dövlət-din münasibətlərinin möhkəmləndirilməsi və dinlərarası dialoqun genişləndirilməsi istiqamətində səyləri vurğulanıb. Bildirilib ki, Şeyxülislam Allahşükür Paşazadənin dövlət-din münasibətlərinin formalaşması, milli həmrəyliyin və mənəvi-əxlaqi dəyərlərin bərqərar olması sahəsində xidmətləri dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib.

Anar Ələkbərov COVID-19 pandemiyasının bütün sahələrə, o cümlədən dindarların həyatına da təsirsiz ötüşmədiyini deyib. Qeyd edib ki, yeni növ koronavirusun geniş yayılması səbəbindən hazırda bütün dünyada, o cümlədən ölkəmizdə kütləvi tədbirlər keçirilmir. Beynəlxalq təcrübə və ilk növbədə, insan həyatının qorunması əsas götürülərək, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, bu ilin mart ayından məscid, kilsə, sinaqoq və ziyarətgahlarda ibadətlər müvəqqəti olaraq dayandırılıb. İnsanların sağlamlığının qorunması baxımından atılmış bu addımın istər din xadimləri, istərsə də əhali tərəfindən anlayışla qəbul olunduğu minnətdarlıqla diqqətə çatdırılıb. Qeyd olunub ki, virus səbəbindən dünya zəvvarlarının, o cümlədən çoxsaylı vətəndaşlarımızın Həcc ziyarəti arzusu baş tutmayıb, Məhərrəmlik ayı ərzində məscid və ziyarətgahlarda təziyə mərasimlərinin keçirilməməsi qərara alınıb, eyni zamanda Ramazan və Qurban bayramlarında dini ayin və mərasimlərin keçirilməsi mümkün olmayıb. İnsanlar məscidlərdə bayram namazını birlikdə qıla bilməsə də, televiziya kanallarında müxtəlif məscidlərin imamlarının iştirakı ilə qılınan namaz canlı nümayiş olunub və bu da pandemiya şəraitində insanlar tərəfindən rəğbətlə qarşılanıb.

Anar Ələkbərov qeyd edib ki, pandemiyanın başlanğıc mərhələsində karantin rejimi və tətbiq olunan bir sıra məhdudiyyətlərin iqtisadi sahədə çətinliklərə yol açacağı proqnozlaşdırılsa da, Prezident İlham Əliyev vətəndaşların sağlamlığının qorunmasını prioritet olaraq müəyyənləşdirib, hökumətin fəaliyyəti də bu strategiya üzərində qurulub.

Azərbaycan Prezidentinin köməkçisi ötən dövr ərzində Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq Nazirlər Kabineti yanında Operativ Qərargahda aparılmış müzakirələr və görülən işlər barədə məlumat verib. Bildirib ki, ötən müddət ərzində xüsusi rejimli xəstəxanalar lazımi avadanlıqla təchiz edilib, təlimlər keçirilərək kadr hazırlığı təmin olunub, əhalinin ehtiyacları qarşılanıb, xaricdəki soydaşlarımızın ölkəyə gətirilməsi təşkil olunub. Qəbul edilən qərarlar və görülən tədbirlər nəticəsində xəstəliyin nəzarət altına alındığı, səhiyyə sisteminin mövcud çağırışa uyğun olaraq qurulduğu qeyd edilib.

Görüşdə din xadimlərinin fikirləri və təklifləri dinlənilib, belə müzakirələrin əhəmiyyəti qeyd olunub. Çıxışçılar dövlət tərəfindən dinə və din xadimlərinə olan diqqəti yüksək dəyərləndiriblər və ölkəmizdə bu sahədə görüləcək işlərə dair müzakirələr aparılıb.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Türkiyə Respublikasının 3-cü Ordu Komandanı, general-polkovnik Şərəf Öngayın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərində iştirak etmək üçün Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sentyabrın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov nümayəndə heyəti ilə görüşüb.

Ali Məclisin Sədri qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrinin nümayəndə heyətini Azərbaycanın Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu bildirərək deyib: "Ölkələrimiz arasındakı əlaqələrin inkişafında ordu quruculuğu xüsusi yer tutur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının mühüm tərkib hissəsi kimi dəyərləndirdiyi ikitərəfli hərbi əməkdaşlığımız bu gün ölkə prezidentlərinin iradəsinə uyğun olaraq davam və inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında da ordu quruculuğu tədbirlərinə, xüsusilə bu sahədə qardaş Türkiyə ilə əməkdaşlığa mühüm əhəmiyyət verilir. 1997-ci ildən bu günədək Naxçıvan Muxtar Respublikasında 600-dən artıq Türkiyə hərbçisi xidmət keçib, Heydər Əliyev adına Hərbi Liseyi bitirən 120-yə yaxın kursant isə Türkiyənin ali hərbi məktəblərində təhsillərini davam etdirib. Həmçinin ötən il Əlahiddə Ümumqoşun Ordunun 72 hərbi qulluqçusu Türkiyədə müxtəlif kurslarda olmuşdur. Son illər keçirilən birgə hərbi təlimlər də uğurlu əməkdaşlığın nəticəsi kimi məmnunluq doğurur.

Ali Məclisin Sədri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdiriləcəyinə əminliyini bildirib, göstərilən dəstəyə görə Türkiyə dövlətinə və Silahlı Qüvvələrinə minnətdarlıq edib.

Türkiyə Respublikasının 3-cü Ordu Komandanı, general-polkovnik Şərəf Öngay səmimi qəbula görə nümayəndə heyəti adından minnətdarlıq edib, Naxçıvanda olmaqdan böyük gürur keçirdiklərini bildirib. Ötən illərdə keçirilən birgə hərbi təlimlərdə iştirakını məmnunluqla xatırladan Şərəf Öngay "Bir millət, iki dövlət" prinsipinə əsaslanan ikitərəfli əlaqələrimizdə ordu quruculuğu sahəsində görülən işləri, xüsusilə birgə hərbi təlimlərin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# DOST mərkəzlərində avqust ayı ərzində 26 mindən çox vətəndaşa xidmət göstərilib

DOST mərkəzlərində avqust ayı ərzində 26 min 154 vətəndaşa xidmət göstərilib.

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyindən AZƏRTAC-a verilən məlumata görə, müraciətlərin 19 min 232-si sosial müdafiə, 4 min 636-sı müavinət, 1759-u sosial xidmət, 1254-ü əlillik və 977-si isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət istiqamətlərinə dair arayışlar verilməsi ilə bağlı olub. Həmin müddət ərzində mərkəzlərdə 2 min 921 sorğu üzrə elektron ünvanlar vasitəsilə müavinət, pensiya, təqaüd və məşğulluğa dair vətəndaş müraciəti cavablandırılıb. 1790 vətəndaşa isə sosial xidmət göstərilib.

Həmçinin son bir ay ərzində 142 Çağrı mərkəzinə daxil olmuş 43 min 325 zəngdən 42 min 156-sı cavablandırılıb.

Avqustda vətəndaşların DOST mərkəzlərindəki xidmətlərdən məmnunluq səviyyəsi 96,75 faiz təşkil edib.

# Prezidentin köməkçisi insan hüquqları, araşdırma və tədqiqat sahəsində fəaliyyət göstərən QHT-lərlə görüşüb

Sentyabrın 3-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev QHT-hökumət dialoqu çərçivəsində insan hüquqları, araşdırma və tədqiqat sahəsində fəaliyyət göstərən 68 QHT-nin rəhbəri ilə görüş keçirib.







Bu barədə AZƏRTAC-a Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının Mətbuat xidmətindən məlumat verilib.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev bildirib ki, insan hüquqlarının müdafiəsi QHT-lərin əsas fəaliyyət istiqamətlərindən biridir. Dövlətimiz üçün milli maraqlarımızın yerli və beynəlxalq səviyyədə qorunmasında vətəndaş cəmiyyəti institutlarının yaxından iştirakının təmin edilməsi, Ermənistanın 1 milyondan çox vətəndaşımızın fundamental hüquqlarını pozmasının dünya ictimaiyyətinə səmərəli şəkildə çatdırılması, mərkəzi və yerli icra qurumlarının fəaliyyətində şəffaflıq və aşkarlığın artırılması, ictimai nəzarətin gücləndirilməsi prioritet təşkil edir. Buna görə də şura daima insan hüquqlarının qorunması, demokratik proseslərin dəstəklənməsi və araşdırma sahəsində fəaliyyət göstərən QHT-lərin təşəbbüs və layihələrini maliyyələşdirir. Şura sədri Prezidentin köməkçisi Hikmət Hacıyevin qeyd olunan istiqamətdə ixtisaslaşmış QHT-lərlə dialoqunun onların fəaliyyəti üçün əlavə stimul olacağına və müxtəlif formatlarda bu dialoqun bundan sonra da davam edəcəyinə inandığını bildirib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev indiyədək QHT-lərlə keçirdiyi görüşlərdə 200-dən artıq təşkilatın iştirak etdiyini deyib. Hikmət Hacıyev QHT-hökumət dialoqunun ictimai sektorun fəaliyyətinin müasir dövrün çağırışlarına uyğun şəkildə qurulması üçün yeni yanaşmaların müəyyən edilməsi baxımından xüsusi önəm daşıdığını bildirib. H.Hacıyev bu dialoqun Prezident İlham Əliyevin vətəndaş cəmiyyətinin, ictimai nəzarətin daha da gücləndirilməsi, dövlət qurumlarının fəaliyyətində şəffaflıq və hesabatlığın artırılması, insan hüquq və azadlıqlarının etibarlı şəkildə qorunması ilə bağlı siyasi iradəsinin növbəti təzahürü olduğunu bildirib.

Hikmət Hacıyev insan hüquqlarının qorunmasının ümumbəşəri məsələ olmasına baxmayaraq, bu sahədə çalışan bir sıra beynəlxalq qurumların Ermənistanın 30 ildən artıq müddətdə Azərbaycan vətəndaşlarının hüquqlarını kobud şəkildə pozması faktına ədalətli və qaneedici səviyyədə münasibət bildirmədiyini qeyd edib. Prezidentin köməkçisi insan hüquqları ilə bağlı selektiv deyil, obyektiv və qərəzsiz mövqe tutan yerli və beynəlxalq təşkilatlarla dialoqa hər zaman açıq olduğunu deyib.

Hikmət Hacıyev beyin mərkəzlərinin müəyyən dövlətlərin, regionun və dünyanın müxtəlif problemlərini tədqiq və təhlil edərək müvafiq təşkilatlara tövsiyələr verən əhəmiyyətli intellektual institutlar olduğunu vurğulayıb. Prezidentin köməkçisi Azərbaycan QHT-lərinin də bu istiqamət üzrə ixtisaslaşmasının və xarici həmkarları ilə beynəlxalq əməkdaşlığı genişləndirməsinin vacib olduğunu deyib.

Görüşdə "Sosial Hüquqların Araşdırılması" İctimai Birliyinin sədri Mayis Əliyev, Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynli, "Güzəran" Sosial Araşdırmalar İctimai Birliyinin sədri Qadir İbrahimli, Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin sədri Araz Aslanlı, Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin sədri Rufiz Qonaqov, Şərq Tərəfdaşlığı Vətəndaş Cəmiyyəti Forumunun Azərbaycan Milli Platformasının koordinatoru Şəhla İsmayıl, "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyinin sədri Fikrət Yusifov, Psixoloji Xidmət və Tədqiqatlar İctimai Birliyinin sədri Təranə Paşayeva, "Tərəqqi və Demokratiya" İctimai Birliyinin sədri Əhməd Qəşəmoğlu, "ELS - Müstəqil Araşdırmalar Mərkəzi" İctimai Birliyinin sədri İradə Yaqubova, "Jurnalist Ekspert Mərkəzi" İctimai Birliyinin sədri Ceyhun Musayev, İctimai Problemlərin Tədqiqi Assosiasiyasının sədri Məhərrəm Zülfüqarlı, Elmi Tədqiqat "Qafqaz Tarixi Mərkəzi" İctimai Birliyinin sədri Rizvan Hüseynov, "Spektr" sosial-iqtisadi araşdırmalar və inkişaf İctimai Birliyinin sədri Ramil Abbasov, "Mediada İnnovativ Təşəbbüslərə Dəstək" İctimai Birliyinin sədri Müşviq Ələsgərli, "Bakı Natiqlik Məktəbi" İctimai Birliyinin sədri Elçin Mirzəbəyli, Soyqırımı Həqiqətlərinin Tanıdılması İctimai Birliyinin sədr müavini Anar Əliyev, "Oğuz" Müstəqil Araşdırmaçılar Qrupu İctimai Birliyinin sədri Vüqar Ziferoğlu, Regional İnsan Hüquqları və Media Mərkəzi İctimai Birliyinin sədri Xalid Kazımov, "Azadlıqdan Məhrumetmə Yerlərinin Müşahidəsi" İctimai Birliyinin sədri Kamil Səlimov, "Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev, "Hüquqşünas Qadınlar Assosiasiyası" İctimai Birliyinin sədri Xanım Əhmədzadə, İnsan Hüquqları və Maarifçilik İctimai Birliyinin sədri Rəfail Becanov, "Müvəkkil Hüquq Mərkəzi" İctimai Birliyinin sədri Səməd Vəkilov, Azyaşlıların hüquqi maariflənməsinə kömək İctimai Birliyinin sədri Nazlı Zeynalova, "Hüquqi Yardım" İctimai Birliyinin sədri İlqar Qasımov, "Vətəndaş İştirakçılığının Təşviqinə Dəstək" İctimai Birliyinin sədri Taleh Əliyev, Demokratiyanın İnkişafı Problemləri Mərkəzi İctimai Birliyinin sədri Mütəllim Rəhimov, "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri Zaur İbrahimov, "Vətəndaş Cəmiyyəti Uğrunda" Müstəqil Məsləhət və Yardım Mərkəzinin sədri Rafiq İsmayılov, "Qloballaşan Azərbaycan" Sivil İnkişaf Mərkəzi İctimai Birliyinin sədri Anar Əsədli, "Demokratiyanı Öyrənmə" İctimai Birliyinin sədri Mirəli Hüseynov, "Elmi Araşdırmalar" İctimai Birliyinin sədri Telman Qasımov, Demokratik İslahatçı Gənclər İctimai Birliyinin sədri Vüsalə Hüseynli, "Beynəlxalq İnformasiya və Regional Araşdırmalar" İctimai Birliyinin sədri Zaur Qəriboğlu, "Qızılbaş" Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Aqil Ələsgər, Müstəqil Jurnalistlərə Texniki və Hüquqi Yardım İctimai Birliyinin sədri Asəf Quliyev, "Vətəndaş Maarifləndirilməsi" İctimai Birliyinin icraçı direktoru Elşad Məmmədli, "Qadın Liderliyi Uğrunda" İctimai Birliyinin sədri Ülkər Abdullayeva, "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri Cəsarət Hüseynzadə, "Aktor" İctimai və Sosial Tədqiqatlar İctimai Birliyinin sədr müavini Telman İsa, Sosial Rifah və Tədqiqatlar İctimai Birliyinin sədri Əkrəm Bəydəmirli, Avrasiya Hüquqşünaslar Assosiasiyası İctimai Birliyinin sədri Cavid Hüseynli, "Qadın Konsensus Mərkəzi" İctimai Birliyinin sədri Aynur Camal, Media və Mülki Cəmiyyət İctimai Birliyinin sədri Xanoğlan Əhmədov, "Hüquqi və Demokratik İslahatlar Mərkəzi" İctimai Birliyinin sədri İlham Əliyev, "Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsi" İctimai Birliyinin sədri Nadir İsmayılov, Azərbaycan Demokratik Jurnalistlər Liqası İctimai Birliyinin sədri Yadigar Məmmədli, Tərəfsiz Jurnalistlər İctimai Birliyinin sədri Elşad Eyvazov, "Ortaq Dəyərlər" İctimai Birliyinin sədri Aqil Camal, "Jurnalistika və İnkişaf Mərkəzi" İctimai Birliyinin sədri Elməddin Muradov, "Ruh" Jurnalistlərin Müdafiəsi İctimai Birliyinin sədri Əvəz Rüstəmov, "Yeni Fikir" Jurnalist Həmrəyliyi İctimai Birliyinin sədri Elmira Mehdiyeva, "Əks-Səda" Beynəlxalq Jurnalist Tədqiqatları Mərkəzi İctimai Birliyinin sədri Sevinc Kərimova, "İnnovativ Media" jurnalistlərin peşəkarlığının artırılmasına dəstək İctimai Birliyinin sədri Aynur Nəsirova, "Dinc Dünya" Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri Əlisafa Mehdiyev, "Azərbaycan Demokratik İslahatların İnkişafı Mərkəzi" İctimai Birliyinin sədri Cavid Şahverdiyev, Azərbaycan Ormitoloji Mərkəzinin sədri Elçin Sultanov, Ahıl Ziyalılara Qayğı İctimai Birliyinin sədri Nəsrulla Nurullayev, İnsan Hüquqları üzrə Maarifləndirmə İctimai Birliyinin sədri İradə Cavadova, Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsinin sədri Arzu Abdullayeva, Hüquqi Təşəbbüslər Mərkəzi İctimai Birliyinin sədri Ziya Quliyev, "İnternyus Azərbaycan" İctimai Birliyinin sədri İlham Səfərov, Dini Etiqad və Vicdan Azadlıqlarının Müdafiə Mərkəzinin (DEVAMM) sədri İlqar İbrahimoğlu, "Müasir İnkişaf" İctimai Birliyinin sədri Mübariz Göyüşlü, Azərbaycan İnsan Hüquqlarının Müdafiəsi Mərkəzinin sədri Eldar Zeynalov, İctimai Yayım və Monitorinq Mərkəzi İctimai Birliyinin sədri Ələsgər Məmmədli və İnsan Haqları Klubu İctimai Birliyinin sədri Rəsul Cəfərov iştirak edib.

Görüşdə çıxış edən QHT rəhbərləri hökumətin QHT-lərlə belə geniş formatda başladığı dialoqun vacib olduğunu vurğulayaraq belə təşəbbüsün irəli sürülməsini təqdir etdiklərini bildiriblər. QHT rəhbərləri ictimai sektorun və bilavasitə fəaliyyət göstərdikləri sahədə mövcud vəziyyət haqqında danışaraq üzləşdikləri çətinliklərin aradan qaldırılması ilə bağlı fikir və təkliflərini səsləndiriblər.

Yekunda çıxış edən Hikmət Hacıyev müzakirələrin faydalı olduğunu, QHT-lərin irəli sürdüyü rəy və təkliflərin araşdırılacağını və əsaslandırılmış məsələlərin həlli istiqamətində müvafiq addımların atılacağını qeyd edib.

Məlumat üçün qeyd edək ki, Prezidentin köməkçisi Hikmət Hacıyevin QHT-lərlə görüşü davam edəcək.

# BMT İlham Əliyevin qlobal təşəbbüslərini təqdir edir

## Prezidentin pandemiya ilə mübarizədə xüsusi sessiyanın keçirilməsi təklifi ümumi öhdəliyi səfərbər etmək baxımından etibarlı platforma hesab olunur

*Əvvəli 1-ci səh.*

Dövlət başçısı çəkinmədən şəxsi nümunə göstərərək, səyləri birləşdirməyə çağırdı. Bildirdi ki, ağır durumda olan ölkələrə humanitar yardım göstərilməlidir və həmin humanitar yardım göstərildi də. Respublikamız pandemiya ilə mübarizədə qlobal həmrəylik nümayiş etdirərək ÜST-ə 10 milyon dollar həcmində könüllü ianə ayırdı və üstəlik, 30-dan artıq dövlətə humanitar yardım göndərdi.

Cənab İlham Əliyev Qoşulmama Hərəkatının onlayn Zirvə görüşündə çıxışı zamanı qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifini irəli sürmüşdü. Bundan sonra təklif Nyu Yorkda Qoşulmama Hərəkatına 120 üzv ölkə arasında yekdilliklə razılaşdırıldı. Tezliklə BMT üzvü olan 130 dövlət də bu təşəbbüsü alqışladı. Xüsusi sessiyasının keçirilməsi təklifi ilə Baş katib Antonio Quterreşə müraciət ünvanlandı. Heç şübhəsiz, BMT-nin 130-dək üzv dövləti tərəfindən bu təşəbbüsün dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə olan böyük inam və etimadın növbəti göstəricisidir. Ən mühüm məqamlardan biri odur ki, təşəbbüsü dəstəkləyən ölkələr dünyanın bütün regionlarını əhatə etdi.

### Azərbaycana olan etimadın daha bir bariz nümunəsi

Prezident İlham Əliyevin bu təklifinin öncə BMT-nin Baş Katibi Antonio Quterreş, sonra isə Baş Assambleyanın sədri Ticcani Məhəmməd-Bande tərəfindən təqdir olunması əlbəttə ki, qürurvericidir. Çünki koronavirus pandemiyasının müşahidə edildiyi ilk zamanlarda Prezident İlham Əliyev tərəfindən qlobal əhəmiyyətə malik təşəbbüslər ortaya qoyulub, regional və beynəlxalq səviyyədə resursların səfərbər olunması zərurəti dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. Bu mütərəqqi ideya və təşəbbüslərin beynəlxalq səviyyədə böyük maraqla və rəğbətlə qarşılanması isə Azərbaycana olan inam və etimadın daha bir bariz nümunəsidir.

Azərbaycanın dünyada müstəqil siyasət yürüdən, qlobal siyasi proseslərə və beynəlxalq münasibətlər sisteminə öz baxışı olan bir dövlət kimi tanınması ölkəmizin nüfuzunun yüksəlməsini, ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsini təmin edib.

Azərbaycan Prezidenti təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Dövlət başçısının təşəbbüsləri qlobal miqyasında beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir. Bu da onu göstərir ki, son 17 ildə Azərbaycanda həyata keçirilən mühüm tədbirlər beynəlxalq birliyin Azərbaycana inamının, etimadının təzahürü, ölkəmizin və cənab İlham Əliyevin qlobal miqyasda nüfuzunun göstəricisidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Biz birlikdə güclüyük!

## Ətraf mühit nazirlərinin qlobal iqlim dəyişmələri və COVID-19-a qarşı mübarizədə beynəlxalq həmrəylik mövzusunda onlayn görüşü keçirilib



Yaponiya hökumətinin təşəbbüsü və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinin dəstəyi ilə koronavirus pandemiyası və iqlim dəyişmələri ilə bağlı qlobal böhranların əlaqələndirilməsi üzrə yaradılan beynəlxalq onlayn platformanın açılışı olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə 81 ölkənin ekologiya və ətraf mühit nazirləri, həmçinin iqlim dəyişmələri sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Görüşdə Azərbaycan Respublikasını Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev təmsil edib. M.Babayev çıxışında Azərbaycan Respublikasının COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianənin ayırdığını, 30-dan çox dövlətə humanitar yardımların göstərildiyini bildirib. Bundan əlavə, iqlim dəyişmələrinə təsirin azaldılması istiqamətində son illər ölkədə milyonlarla ağac əkildiyini və minlərlə hektar meşə sahəsinin bərpa edildiyini qeyd edib.

Nazir, həmçinin ölkəmizin 20-dək beynəlxalq ekoloji konvensiyaya qoşulduğunu, torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal edilməsi səbəbindən bu konvensiyalar üzrə öhdəliklərin yerinə yetirilməsində çətinliklərin yarandığını görüş iştirakçılarının diqqətinə çatdırıb.

Qeyd edək ki, dünya ölkələrini birləşdirən yeni platformanın yaradılmasında məqsəd iqlim dəyişmələri və COVID-19 pandemiyası ilə əlaqədar böhranların aradan qaldırılması üçün beynəlxalq həmrəyliyin təşviq edilməsi və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsidir.

## Sentyabrın 8-dən bəzi sahələr üzrə əlavə yumşalma tədbirlərinin həyata keçirilməsi qərara alınıb

Azərbaycan Respublikasında xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində və vətəndaşların məsuliyyətli davranışı sayəsində koronavirus (COVID -19) infeksiyasının yayılması məhdudlaşdırılıb, yoluxma hallarının sayında azalmaya nail olunub.

Avqustun 5-dən başlayaraq sərt karantin rejiminin mövcud olduğu şəhər və rayonlarda, eləcə də ölkə üzrə bəzi məhdudiyyətlər aradan qaldırılıb və yumşalmalar təmin edilib.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, sanitar-epidemioloji vəziyyətə uyğun olaraq 2020-ci il sentyabrın 8-i saat 00:00-dan aşağıdakı sahələr üzrə əlavə yumşalma tədbirlərinin həyata keçirilməsi qərara alınıb:

-Müvafiq karantin qaydalarına riayət olunmaqla və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Koronavirus (COVID-19) pandemiyası dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" 2020-ci il 6 iyul tarixli 237 nömrəli qərarına uyğun olaraq saat 00:00-a qədər ictimai iaşə obyektlərinin daxilində xidmət göstərilməsinə icazə verilir;

-Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyətlər aradan qaldırılır (şəhərlərarası və rayonlararası sərnişindaşıma istisna olmaqla).

Operativ Qərargah mövcud sanitar-epidemioloji vəziyyətdən irəli gələrək və virusa yeni yoluxma hallarına yol verməmək üçün bir daha hamını tətbiq olunmuş karantin rejiminin tələblərinə, tibbi-profilaktik qaydalara əməl etməyə çağırır.

## Azərbaycanda koronavirus infeksiyasına daha 132 yoluxma faktı qeydə alınıb, 155 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 132 yoluxma faktı qeydə alınıb, 155 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 37 min 31 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 34 min 419 nəfər müalicə olunaraq sağalıb, 543 nəfər vəfat edib. Aktiv xəstə sayı 2069 nəfərdir.

Ötən müddət ərzində 949 min 313 test aparılıb. Dünənki test sayı isə 7048-dir.




Əvvəli 1-ci səh.

# Dövlətin tədbirlər planı effektiv nəticələrini verir

### Tendensiya bu cür davam edərsə, qısa zamanda normal həyata qayıdacağıq

### Azərbaycanın koronavirusla mübarizədə uğurlu fəaliyyəti

Peyvənd tam hazır olanadək bəzi dünya ölkələri koronavirusun yayılmasının qarşısını almaq məqsədilə məhdudlaşdırıcı tədbirlər görür, xüsusi karantin rejimini uzadırlar. İndiki şəraitdə koronavirusun yayılma arealını azaltmaq üçün görülən effektiv tədbirlərdən biri məhz karantin rejiminin tətbiqidir.

Mütəxəssislər hesab edirlər ki, dünyanın koronavirusla ən uğurlu mübarizə üsulu insanlar arasında təması azaldaraq yoluxma zəncirini qırmaqdır. Azərbaycan da bu yolu seçən ölkələr sırasındadır. Dünyada olduğu kimi, vətənimizdə də infeksiyaya yoluxma sayını azaltmaq üçün martın 14-dən sosial izolyasiya qaydaları tətbiq olundu, aprelin 5-dən isə xüsusi karantin rejimi elan edildi.

Koronavirusun yayılmağa başladığı yeni dönəmlərdə Azərbaycan ona qarşı mübarizəyə qoşulmaqla ortaya çox ciddi nəticələr, nümunələr qoydu. Ölkəmizdə virusun aşkarlandığı ilk günlərdən qəbul edilən qərarlar və karantin rejiminin tətbiqi, eləcə də vətəndaşların böyük qisminin məsuliyyətli davranışı nəticəsində COVID-19-la bağlı vəziyyəti nəzarət altında saxlamaq mümkün oldu.

İki aya yaxındır mənfi tendensiyanın müsbətlə əvəzlənməsi isə hər kəsi sevindirir. Bu da koronavirus pandemiyası ilə mübarizədə Azərbaycanın çox uğurlu fəaliyyət apardığını deməyə əsas verir. Hökumətin gördüyü operativ və səmərəli tədbirlər, qəbul edilən qərarlar, müasir tibbi sənayenin qurulması, qısa müddətdə ixtisaslaşmış xəstəxanaların açılması, dövlətimiz tərəfindən yüksək səviyyədə tibbi xidmətlərin təşkil olunması, müxtəlif ölkələrdən ixtisaslı, təcrübəli həkimlərin Azərbaycana gətirilməsi və onların virusla birbaşa mübarizə prosesinə qoşulması, yerli mütəxəssislərlə təcrübə mübadiləsi aparmaları və s. bugünkü ümumi uğurumuzu təmin edib.

### Bağçalarda geniş təmizlik, dezinfeksiya işləri aparılır

İnfeksiyaya yoluxmanın dinamikasında müsbət tendensiyanın müşahidə olunması və iqtisadi aktivliyin gücləndirilməsi zərurəti nəzərə alınaraq Nazirlər Kabineti yanında Operativ Qərargah son bir ay ərzində karantin rejiminin yumşaldılması barədə bir neçə qərar verib. Hazırda ölkənin əksər şəhər və rayonlarında sərtləşdirilmiş karantin rejimi ləğv edilib, bir çox məhdudiyyətlər aradan qaldırılıb. Bununla belə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yeni yoluxma halları ilə bağlı təhlükə qaldığına görə, bir sıra məhdudiyyətlərin saxlanılması qərara alınıb. Növbəti yumşalma qərarı ölkə ərazisində təhsil müəssisələrinin sentyabrın 15-dən mərhələli şəkildə açılması ilə bağlı olub. Bu tarixdən ilk olaraq ibtidai siniflərdə dərslər keçiriləcək. Yuxarı sinif şagirdləri isə sentyabrın 15-də onlayn tədrisə başlayacaqlar. Zamanla bu siniflərdə təhsil alan şagirdlər üçün də ənənəvi təhsil bərpa ediləcək. Oktyabrın 1-dən etibarən 5-9-cu siniflərin, oktyabrın 15-dən etibarən isə 10-11-ci sinif şagirdlərinin ənənəvi təhsilinin bərpası nəzərdə tutulur.





Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, sentyabrın 15-dən Bakı şəhəri üzrə fəaliyyət göstərən dövlət və özəl uşaq bağçalarının da açılmasına icazə verilib. Müvafiq hazırlıq və tibbi-profilaktik tədbirlərdən sonra epidemioloji vəziyyətə uyğun olaraq 1 oktyabr tarixədək bağçaların tam açılması nəzərdə tutulur.

Bakı Şəhər İcra Hakimiyyətindən bildirilib ki, uşaq bağçalarının fəaliyyəti ancaq mövcud vəziyyət nəzərə alınmaqla, müvafiq sanitar-gigiyenik normalara əməl edilməklə mümkündür. Bununla əlaqədar Bakı Şəhər İcra Hakimiyyətinin Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi tərəfindən müvafiq hazırlıq tədbirləri həyata keçirilir. Artıq idarənin tabeçiliyində olan bütün bağçalarda dezinfeksiya işləri aparılıb. Tərbiyəçilər və texniki işçilər bağçalarda geniş təmizlik, tibbi-profilaktik işləri görür. İşçi personal hazırkı şəraitdə işləmək qaydaları barədə təlimatlandırılıb. Bağçaların oyun, yataq və digər otaqlarında hazırlıq işləri aparılır. Otaqların havalandırılması və təlimata uyğun dezinfeksiyası üçün tədbirlər həyata keçirilir.

Mətbəx və sanitariya qovşaqlarında mütəmadi dezinfeksiya işləri aparılacaq. Hər bir bağçanın girişində xüsusi dezinfeksiyaedici məhlullar qoyulub. Hər gün bağçaya gələn işçi heyəti və uşaqların temperaturu ölçüləcək, tərbiyəçilər tez-tez valideynlərlə əlaqə saxlayacaq. Paytaxtın bütün uşaq bağçaları fəaliyyətə başladıqdan sonra xüsusi karantin rejiminin tələblərinə uyğun müəyyən edilən qaydalar çərçivəsində işləyəcək bu müəssisələrdə sanitar-gigiyena və karantin qaydalarının tələblərinə ciddi əməl olunmasına nəzarət Bakı Şəhər İcra Hakimiyyəti və Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin əməkdaşları tərəfindən həyata keçiriləcək.

### Əsas məsələ müsbət dinamikanı qoruyub saxlamaqdır

Yumşalmalara gedilməsi pandemiyanın başa çatması anlamına gəlməməli və insanlarda arxayınlıq yaratmamalıdır. Əksinə, yumşalmalardan sonra bəzi ölkələrdə xəstələrin sayında artım müşahidə olunur ki, bu, hər birimizi daha məsuliyyətli olmağa sövq etməlidir. Xüsusilə də payız-qış mövsümündə xəstəliklərin baş qaldırması koronavirusun yenidən alovlanmasına səbəb ola bilər. Ölkəmizdə yumşalma addımları da elə atılır ki, xəstələrin sayı kəskin artmasın. Dövlət tərəfindən qəbul edilən bütün qərarların arxasında məhz əhalinin sağlamlığı, rifahı, təhlükəsizliyinin təmini dayanır. Daim insanlarımızın sağlamlığını düşünən dövlət rəhbəri də hər zaman vətəndaşları ehtiyatlı olmağa çağırır. O cümlədən dövlət vəsaiti hesabına işsiz şəxslərə müavinətlərin verilməsi, iş yerləri müvəqqəti dayandırılmış sahibkarlara müvafiq ödənişlərin ödənilməsi də Prezident İlham Əliyevin əhaliyə olan diqqət və qayğısının nəticəsidir.

Ölkədə tətbiq olunan qaydalar, vəziyyətə uyğun şəkildə atılan addımlar və karantin rejimi öz səmərəsini verir. Karantin rejiminin tədricən, mərhələli şəkildə yumşaldılması, dövlətimizin pandemiya ilə mübarizədə apardığı ehtiyatlı tədbirlər proqramı öz effektiv nəticələrini göstərir. Görülən əks-epidemik tədbirlərin səmərəliliyi nəticəsində pandemiya xəstəxanalarında olan xəstələrin sayı kifayət qədər azalıb. Hətta artıq bəzi pandemiya xəstəxanalarının yenidən əvvəlki qaydada fəaliyyət göstərməsi ilə bağlı qərar verilib. Hazırda əsas məsələ əldə olunan bu müsbət dinamikanı qoruyub saxlamaqdır. Bunun üçün karantin qaydalarına anlayışla yanaşaraq əməl etmək, maska taxmaq və sosial məsafəni qorumaq kifayətdir. Bizdən tələb olunan yalnız məsuliyyətli olmaq, karantin qaydalarına riayət etməkdir. Vətəndaş olaraq dövlətin atdığı addımları dəstəkləmək, səbirli olmaq lazımdır. Əgər tendensiya bu cür davam edərsə, qısa zamanda normal həyatımıza qayıdacağıq.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## TƏBİB xarici dövlətlərdəki vətəndaşlarımızı olduqları ölkənin sanitar-epidemioloji qaydalarına ciddi şəkildə riayət etməyə çağırır

**Yeni növ koronavirus pandemiyası səbəbindən xarici ölkələrdə, o cümlədən Azərbaycanla qonşu olan ölkələrdə qalmış vətəndaşlarımızın vətənə qaytarılması istiqamətində tədbirlər davam etdirilir.**

Quru sərhədi ilə Azərbaycana qayıtmaq məqsədilə çoxlu sayda vətəndaşlarımız Rusiya Federasiyasının Dağıstan Respublikası ərazisinə gəlir. Həftəlik əsasda Rusiya Federasiyasının rəsmi orqanları ilə razılaşdırılmış qaydada və xüsusi plana uyğun olaraq vətəndaşlarımızın Samur sərhəd-keçid məntəqəsindən Azərbaycan ərazisinə keçidi həyata keçirilir.

Sərhədi keçən bütün vətəndaşlardan Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi (TƏBİB) tərəfindən koronavirus testi üçün nümunə götürülür və onlar karantin məntəqələrinə yerləşdirilirlər.

TƏBİB-dən AZƏRTAC-a daxil olan açıqlamada deyilir: "Təəssüflə qeyd olunmalıdır ki, avqustun sonuncu həftəsində Rusiyadan quru sərhədi ilə Azərbaycana təxliyə olunmuş vətəndaşlarımızdan götürülmüş testlər nəticəsində 33 nəfərdə COVID-19 infeksiyası aşkar olunub. Əvvəlki aylarda həyata keçirilmiş təxliyələr zamanı testləri pozitiv çıxmış vətəndaşlarımızın sayı cüzi olsa da, qeyd edilən həftədə kəskin artım müşahidə olunmuşdur. Bu, istər Rusiyanın müxtəlif bölgələrindən Dağıstana gələn, istərsə də orada toplanma məntəqələrində təxliyə gözləyən bəzi vətəndaşlarımızın sanitar-epidemioloji tələblər və təhlükəsizlik qaydalarına riayət etməməsinin nəticəsində baş verir.

TƏBİB bir daha xarici dövlətlərdə olan və Azərbaycana qayıtmaq istəyən vətəndaşlarımızı həmin ölkənin sanitar-epidemioloji qaydalarına ciddi şəkildə riayət etməyə çağırır".

## Dövlət Yol Polisi Bakı, Sumqayıt şəhərlərinə və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar hərəkət iştirakçılarına müraciət edib

Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsi Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyətlərin 2020-ci il sentyabrın 8-i saat 00:00-dan aradan qaldırılması ilə bağlı hərəkət iştirakçılarına müraciət edib.

İdarənin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın ölkədə sanitar-epidemioloji vəziyyətə uyğun olaraq şəhərlərarası və rayonlararası sərnişindaşıma istisna olmaqla Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonuna gediş-gəlişlə əlaqədar tətbiq olunmuş məhdudiyyətlərin sentyabrın 8-i saat 00:00-dan aradan qaldırılması barədə məlumatı nəzərə alınaraq, Dövlət Yol Polisi İdarəsi bir daha hərəkət iştirakçılarından müvafiq ezamiyyə sənədləri olmadan və ya "icaze.e-gov.az" portalına bu haqda məlumatlar daxil edilmədən respublikanın digər şəhər və rayonlarına, eləcə də əks istiqamətdə getməyə cəhd edilməməsini və qeyd edilən vaxtadək təmkin göstərərək mövcud qaydalara ciddi riayət olunmasını xahiş edir.

## UNICEF koronavirus əleyhinə vaksinin alışı və tədarükü üzrə aparıcı rolu üzərinə götürəcək

**BMT-nin Uşaq Fondu (UNICEF) COVID-19 əleyhinə vaksinlərin aşağı və orta gəlir səviyyəli ölkələrə çatdırılması prosesinə rəhbərlik edəcək.**

AZƏRTAC BMT-nin Xəbərlər xidmətinə istinadla bildirir ki, Fond, xüsusən COVAX alyansında - koronavirus əleyhinə vaksinlərin işlənməsi və hazırlanması üzrə beynəlxalq əməkdaşlıq proqramında iştirakını bildirən 80 zəngin ölkə tərəfindən dərmanın tədarükündə koordinator olaraq çıxış edəcək.

UNICEF vurğulayır ki, COVID-19 əleyhinə vaksinlərin alışı və tədarükü bu cür əməliyyatların tarixçəsində ən miqyaslı olacaq. Fondun mütəxəssisləri hesab edirlər ki, bu günə olan məlumata görə, sınaq müddətində olan bir neçə preparat kifayət qədər "ümid verir". Fondun icraçı direktoru Henriyetta For deyib: "Bu, COVID-19 pandemiyası ilə mübarizə üzrə hökumətlər, istehsalçılar və digər ortaqlar arasında aparılan çoxtərəfli əməkdaşlıqdır. UNICEF-in hamını vaksinlə təmin etmək üçün kollektiv cəhdlərə töhfəsi - tədarük sahəsində mövcud imkanlarımızdır. Bu yolla, dərman hazır olduğu zaman onun bütün ölkələr tərəfindən alına biləcəyində əmin ola bilərik".

UNICEF dünyada vaksin tədarük edən ən böyük təşkilatdır. Fond hər il həm planlı peyvəndin vurulması, həm də xəstəliklərin və epidemiyaların yayılmasına qarşı mübarizə məqsədilə 100 ölkə adından iki milyarddan artıq doza vaksin tədarük edir. Fondun fəaliyyəti sayəsində son 20 ildə 13 milyon insanın həyatını xilas etmək mümkün olub, 760 milyon uşaq immunizasiyadan keçib.

Koronavirusa qarşı mübarizədə göstərilən cəhdləri nəzərə alaraq 2021-ci ildə Uşaq Fondu tərəfindən vaksinlərin satınalmaların və tədarükünün həcminin iki dəfə artacağı gözlənilir.

Xatırladaq ki, COVAX alyansı Ümumdünya Səhiyyə Təşkilatının himayəsində COVID-19 əleyhinə vaksinin hazırlanması məqsədilə yaradılıb. Alyansa 172 ölkə qatılıb, bunlardan 80-i potensial olaraq ödəmə qabiliyyətinə malik, 92-si isə maliyyə və texniki dəstəyə ehtiyacı olan ölkələrdir.




## Pambıqçılıq, tütünçülük, baramaçılıq və arıçılığa görə verilən subsidiyalar ləğv edilməyib

**Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədovun sentyabrın 2-də imzaladığı 319 saylı qərarla əlaqədar bildiririk ki, bu qərar pambıqçılıq, tütünçülük, barama istehsalı və arıçılıq fəaliyyətinə görə dövlət tərəfindən verilən subsidiyaların ləğv edilməsini nəzərdə tutmur.**

Bunu AZƏRTAC-a açıqlamasında Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynov deyib.

O bildirib ki, kənd təsərrüfatına dövlət dəstəyinin göstərilməsi hazırda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında" 2019-cu il 27 iyun tarixli 759 saylı Fərmanı ilə tənzimlənir: "Həmin fərmanla təsdiq edilən vahid qaydaya uyğun olaraq ölkəmizdə bitkiçilik və heyvandarlıq üzrə 6 növ subsidiya üzrə ödənişlər bu il yanvarın 1-dən etibarən Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi üzərindən həyata keçirilir. Bu səbəbdən fermerlərə subsidiya verilməsinə dair Nazirlər Kabinetinin əvvəlki qərarları, mövcud hüquqi-normativ aktlar yeni fərmana uyğunlaşdırılır. Bu, hüquqi prosedurdur və Nazirlər Kabinetinin aqrar sahəyə dövlət dəstəyinin nəzərdə tutan bir sıra qərarların ləğvinə dair son qərarı bu uyğunlaşma ilə əlaqədardır. Artıq bu il dövlət tərəfindən payızlıq əkinlərə görə subsidiyaların ödənilməsi həyata keçirilib, digər kateqoriya subsidiyaların, o cümlədən arıçılığa görə subsidiyaların ödənilməsi hazırda davam edir. Sosial şəbəkələrdə Nazirlər Kabinetinin son qərarının subsidiyaların ləğv edilməsi kimi şərh olunması yanlışdır və bunun heç bir hüquqi əsası yoxdur".

Vüqar Hüseynov qeyd edib ki, Aqrar Subsidiya Şurasının 2 sentyabr 2019-cu il tarixli qərarına görə, fermerlərə emal müəssisələrinə təhvil verilən pambığın hər tonuna görə 100 manat, təhvil verilən yaş tütünün hər tonuna görə isə 50 manat məhsul subsidiyası verilir. Bundan əlavə, fermerlərə pambıq sahələrinin hər hektarına görə 220 manat, tütün sahələrinin hər hektarına görə isə 280 manat əkin subsidiyası ödənilir. Arıçılar isə təsərrüfatlarında olan arı ailələrinin hər birinə görə 10 manat subsidiya alırlar. Dövlət həmçinin qəbul məntəqələrinə təhvil verilmiş yaş baramanın hər kiloqramına görə kümçülərə 5 manat subsidiya ödəyir. "Bu subsidiyaların heç biri ləğv olunmayıb, ölkədə aqrar sahəyə dövlət dəstəyi tam şəkildə davam etdirilir və fermerlərimizin mövcud "Fermer kartı"na subsidiyaların köçürülməsi əvvəlki qaydada davam edəcək", - deyə o, əlavə edib.

# Pambıq tarlaları bol məhsuldan xəbər verir



Əvvəli 1-ci səh.

Hər hektarın orta məhsuldarlığı 37,2 sentnerə çatmışdır. Deyə bilərəm ki, zəmilərin suvarma suyu ilə təminatında heç bir problem olmamışdır. Əkinlərin suvarma suyu ilə etibarlı təminatının nəticəsidir ki, arpa, buğda sahələrinin məhsulu biçilib götürüləndən sonra 2143 hektar sahəyə təkrar qarğıdalı əkilmişdir. 2362 hektar sahədə isə yazlıq qarğıdalı yetişdirilmişdir. Qarğıdalı suya tələbkar bitkidir. Biz öz fəaliyyətimizdə əkinçilərin bu qayğısını mütləq nəzərə alır, onların tələblərini yüksək səviyyədə ödəməyə çalışırıq.

Rayonun suvarma sistemləri hələ yaz aylarından gücləndirilmiş rejimdə çalışır. Məqsəd böyük zəhmət bahasına əkilmiş hər toxumun sudan korluq çəkməsinə imkan verməmək, kəndlinin torpaqdan xeyir götürməsində etibarlı vasitəçi olmaqdır. Bu il rayonumuzun təsərrüfatlarında 871 hektarda tərəvəz, 363 hektarda bostan, 440 hektarda şəkər çuğunduru əkilib-becərilir.

Bu il ölkənin bəzi bölgələrində yaşanan su problemi bizdə də müəyyən çətinliklər yaratdı. Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin gördüyü zəruri tədbirlər, mal-materialla təminatda operativlik, xüsusi qayğı və diqqət qarşılaşdığımız problemlərin həllində əsas yardımçımız oldu. Rayon Suvarma Sistemləri İdarəsi kollektivinin gərgin əməyi sayəsində əkinlərə ziyan dəymədi. Rayonun aqrar sektorunda əsas sahəni təşkil edən pambıqçılıqda həyata keçirilən kompleks tədbirlər məhsul bolluğuna etibarlı bünövrə oldu.

Pambıq əkilmiş 10689 hektar sahədə əkinlərin sudan korluq çəkməsinə imkan vermirik. Artıq faraş qozalar açır, tarlalar yavaş-yavaş ağ örpəyə bürünür. Bol məhsuldan xəbər verən tarlalara baxdıqca aylardan bəri çəkdiyimiz zəhmətin ağrı-acısını unuduruq. İnanırıq ki, Ağcabədi pambıqçıları bu il də yeni nailiyyətlər qazanacaqlar.

***Malik MİRZƏYEV,***
***Ağcabədi Suvarma Sistemləri İdarəsinin rəisi***

## Yeni sahibkarlıq subyektlərinin yaradılmasına dəstək göstərilir

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) yeni sahibkarlıq subyektlərinin yaradılmasına dəstəyini davam etdirir.

KOBİA-dan bildirilib ki, agentliyin Xaçmaz KOB İnkişaf Mərkəzi tərəfindən yeni sahibkarlıq subyektlərinin yaradılması üçün biznesə başlamaqda maraqlı olan şəxslər müxtəlif təlimlərə cəlb olunur, onların potensialına uyğun müvafiq fəaliyyət sahəsi seçilir, fərdi sahibkarlıq subyektinin və ya məhdud məsuliyyətli cəmiyyətin (MMC) təsis olunması üçün sənədləşdirmə, qeydiyyat, maliyyə resurslarına çıxış və digər istiqamətlərdə dəstək göstərilir. 2020-ci ilin fevralında fəaliyyətə başlamış Xaçmaz KOB İnkişaf Mərkəzinin dəstəyi ilə indiyədək Quba-Xaçmaz iqtisadi rayonunda 4 fərdi sahibkarlıq subyekti və 5 MMC yaradılıb. Yeni yaradılmış sahibkarlıq subyektləri xidmət, ticarət, tədris, kənd təsərrüfatı məhsullarının qablaşdırılması üçün tara istehsalı, məişət texnikasının onlayn satışı, süd məhsullarının sifarişlə çatdırılması, pomidor istehsalı və ixracı, gömrük təmsilçiliyi sahələrində fəaliyyət göstərirlər.

Qeyd edək ki, KOB İnkişaf mərkəzləri sahibkarlıq subyektlərinin yaradılmasına dəstək göstərməklə yanaşı, biznesə başlamaq istəyənlərə, mikro, kiçik və orta sahibkarlara biznesin qurulması və inkişaf etdirilməsi üçün təlim və məsləhət xidmətləri təqdim edir, məlumatlandırma, əlaqələndirmə, maliyyə resurslarına çıxış və sair kimi istiqamətlərdə dəstək və xidmətlər göstərir.



## Ailə təsərrüfatlarının inkişafı əhalinin rifah səviyyəsinin yüksəlməsinə öz töhfəsini verir



Son illər Naxçıvanda ailə təsərrüfatlarının inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı"nın icrası bu baxımdan mühüm əhəmiyyətə malikdir. 2018-ci ildə muxtar respublikada 319 ixtisaslaşmış ailə təsərrüfatı yaradılıb, 253 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilib.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, muxtar respublikada ailə təsərrüfatlarının sahələr üzrə ixtisaslaşması və yeni belə təsərrüfatların yaradılmasının dəstəklənməsi, onların fəaliyyətinin stimullaşdırılması, qabaqcıl ailə təsərrüfatlarının təcrübələrinin yayılması üçün məqsədyönlü tədbirlər, festivallar keçirilib. Ali Məclis Sədrinin 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" Tədbirlər Planı bu baxımdan mühüm əhəmiyyətə malik olub və belə təsərrüfatlara geniş fəaliyyət imkanları açıb.

Bu istiqamətdə ötən il Sahibkarlığın İnkişafı Fondu tərəfindən 87 ailə təsərrüfatına 820 min manata yaxın dövlət maliyyə dəstəyi göstərilib, 315 ailə 12 min 800-dən çox tara ilə təmin olunub, belə təsərrüfatların biznes planlarının tərtib olunmasına kömək göstərilib, təsərrüfatlara müxtəlif təyinatlı kənd təsərrüfatı texnikaları və gübrələr verilib.

Aqrar sektorda tətbiq edilən güzəştlər və subsidiyalar ailə təsərrüfatlarının inkişafını stimullaşdırıb və onların fəaliyyət sahələrini genişləndirməyə şərait yaradıb. Bu istiqamətdə cari ildə işlər davam etdirilib, Sahibkarlığın İnkişafı Fondu tərəfindən istixana, soyuducu anbar, heyvandarlıq və süd emalı, arıçılıq təsərrüfatları, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi və qablaşdırılması, bağçılıq sahəsinin yaradılması məqsədilə 30 ailə təsərrüfatına 306 min manatdan çox dövlət maliyyə dəstəyi göstərilib, 300-ə yaxın ailə isə 4 min 700-dən çox tara ilə təmin olunub. Bu isə, öz növbəsində, təsərrüfatların fəaliyyətinin genişləndirilməsinə, bir hissəsinin isə kiçik sahibkarlıq subyektinə çevrilməsinə təkan verib.

Ailə təsərrüfatlarının əsasən istehsalyönümlü iqtisadi fəaliyyət sahələrini əhatə edərək, muxtar respublikada daxili bazarın daha keyfiyyətli və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları ilə təminatında və bu istiqamətdə idxaldan asılılığın azaldılmasında, eləcə də kənd yerlərində məşğulluğun təmin olunmasında müstəsna rolu var. Digər tərəfdən, aparılan məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikada ailə təsərrüfatlarının sayının getdikcə çoxalması əmək resurslarının səmərəli məşğulluq imkanlarını artırmaqla yanaşı, iqtisadiyyatda mühüm faktorlardan olan ailə biznesinin genişlənməsinə, kiçik və orta sahibkarlığın inkişafına əlavə imkanlar yaradır.

Hazırladıqları məhsulları özlərinə məxsus brend adı altında satışa çıxarmaları ailə təsərrüfatlarını işlərini inkişaf etdirməyə, bazara yeni məhsullar təqdim etməyə daha da həvəsləndirir. Ailə təsərrüfatlarında istehsal olunan məhsulların tanıdılması, təşviqi və sərgisi məqsədilə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərgi salonunda ailə təsərrüfatlarının 118 çeşiddən çox məhsulunun nümayişi təmin olunub. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq şəhər və rayonlarımızda fəaliyyət göstərən ticarət obyektlərində ailə təsərrüfatı məhsulları guşələrinin yaradılması muxtar respublikada belə məhsulların çeşid və rəqabətqabiliyyətliyinin stimullaşdırılmasında, istehlakçıların ekoloji təmiz ərzaq məhsulları ilə təmin edilməsində mühüm rol oynayıb.

İstehsalın mühüm şərtlərindən biri keyfiyyət amilidir. Bu istiqamətdə ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin nəzdində fəaliyyət göstərən "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ailə təsərrüfatlarının istehsal etdikləri məhsulların keyfiyyətinə nəzarət etmək məqsədilə ailə təsərrüfatlarında hazırlanan məhsullardan orta nümunələr götürülərək Mərkəzi Qida Sınaq Laboratoriyasında keyfiyyət və təhlükəsizlik göstəricilərindən olan orqanoleptiki, fiziki, kimyəvi, toksikoloji və mikrobioloji göstəricilər üzrə laboratoriya təhlilləri aparılıb. Nəticədə 418 halda məhsullardan laboratoriya analizləri götürülüb, nümunələrin keyfiyyət və təhlükəsizlik göstəricilərinin qüvvədə olan normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyən edilib.

Türkiyədə keçirilən kənd təsərrüfatı və heyvandarlıq üzrə avadanlıqların virtual sərgisində muxtar respublikanın qabaqcıl ailə təsərrüfatçılarından olan Mehparə Hüseynovanın iştirakının təmin olunması xarici təcrübənin öyrənilməsində və yeni tərəfdaşların tapılmasında mühüm rol oynayıb.

Muxtar respublikada fermerlərin müasir biliklərə yiyələnməsi, təsərrüfatlarda innovativ metod və texnologiyaların tətbiqi, ərzaq və qida təhlükəsizliyinin təmini, kənd təsərrüfatı məhsulları istehsalçılarının maliyyə resurslarına çıxışının asanlaşdırılması, aqrar sahənin risklərdən sığortalanması, kənd əhalisinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlər davam etdiriləcək. Heç şübhəsiz ki, görülən işlər ailə təsərrüfatlarının gələcəkdə kiçik və orta sahibkarlıq subyektlərinə çevrilməsinə öz töhfəsini verəcək.



## Ağdaşda bu günədək 9750 hektarda yay şumu çıxarılıb

**Ağdaş rayonunda payızlıq əkinə ciddi hazırlıq işləri görülür və bu məqsədlə bütün ərazi dairələrində mühüm aqrotexniki tədbir olan yay şumu çıxarılır.**

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, payızda 17 min hektardan çox sahədə əkin aparılacağı gözlənilir. Hazırda hər yerdə fermerlər və fiziki şəxslər bütün qüvvələrini gələcək yüksək məhsul üçün zəruri olan yay şumunun çıxarılmasına səfərbər ediblər. Artıq 9750 hektarda şum çıxarılıb. Hər gün sahələrə 80-dən çox şum traktoru çıxarılır. Əksər ərazilərdə, o cümlədən daha çox payızlıq taxıl əkiləcək Ərəbocağı, Pirkəkə, Yuxarı Nemətabad, Yenigə və bir sıra digər ərazi dairələrində bu mühüm aqrotexniki tədbir sürətlə davam etdirilir.

## İlk layihənin icrasına başlanılır

"Aqrar İnkişaf Könüllüləri" Təşkilatının təşkilatçılığı, Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi ilə "Səyyar Aqro Məktəb" layihəsinə start verilir.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildiriblər ki, aqrar sahədə ilk dəfə reallaşdırılacaq "Səyyar Aqro Məktəb" layihəsi çərçivəsində "Zoom" platforması vasitəsilə təsərrüfat sahələrində onlayn formatda təlimlər keçiriləcək.




Ölkəmizdə dinamik şəkildə inkişaf edən aqrar sahəyə marağın daha da artırılması və mütəxəssislərin yetişdirilməsi mühüm əhəmiyyət kəsb etdiyindən kənd təsərrüfatının əsas istiqamətlərindən olan heyvandarlığın inkişafı, məhsul istehsalının artırılması, gənc fermerlərin yetişdirilməsi əsas hədəflərdəndir.

Layihənin əsas məqsədi regionlarda yaşayan gənclərin aqrar sahə üzrə bilik və bacarıqlarının artırılmasına nail olmaqdır. Layihəyə əsasən, kənd təsərrüfatı sahəsi üzrə biliklərin müfəssəl şəkildə gənclərə çatdırılması nəzərdə tutulur. Bu məqsədlə "Səyyar Aqro Məktəb" layihəsi çərçivəsində Zaqatala, Şəki, Qax, Balakən, Oğuz və Şamaxı rayonlarında təlim və görüşlər təşkil ediləcək.

İki mərhələ üzrə reallaşdırılacaq layihənin birinci mərhələsində regionlarda xüsusi təsərrüfat sahələri üzrə 300 gəncə peşəkar mütəxəssislər tərəfindən təlimlər keçiriləcək. Təlimlərdə təsərrüfatların yaradılması, idarəedilməsi və gələcəkdə inkişaf etdirilməsi, həmçinin aqrar təhsilin əhəmiyyəti və imkanları haqqında ətraflı məlumat veriləcək.

Layihənin icrası zamanı dünyada və ölkəmizdə mövcud olan koronavirus pandemiyasının və karantin rejiminin tələblərinə ciddi şəkildə əməl olunacaq.

## Üzüm sahələrində bol məhsul var

Tovuzda üzüm yığımına başlanılıb. Son illər fermerlərin xaricdən gətirilən məhsuldar süfrə sortlarına üstünlük verməsi nəticəsində məhsuldarlıq da artıb.

AZƏRTAC xəbər verir ki, sakinlərin üzümçülüyə marağının artması nəticəsində rayonda yeni üzüm bağları salınıb. Artezian quyularının sayının artırılması da fermerlərdə həvəs yaradır.



Tovuz rayonunun Aşağı Quşçu kəndində yaşayan, üzümçülüklə məşğul olan fermer Mübariz Əsgərov deyir ki, üzüm bağlarına ailəliklə qulluq edirlər və bu il yaxşı becərmə işi aparılıb, məhsuldarlıq da yüksəkdir. "Prezidentimizin kənd təsərrüfatına göstərdiyi qayğı, verdiyi tapşırıq və sərəncamlar bizi daha da həvəsləndirir. Yeni subartezian quyuları qazılır. Artezianların sayının artırılması bizə imkan verir ki, üzüm bağlarımızın sahəsini daha da artıraq", - deyə o, əlavə edib.

Fermerlər deyirlər ki, istənilən üzüm növünə düzgün qulluq göstərdikdə yaxşı da məhsul götürmək olar.

Tovuzlu fermerlər üzümün kiloqramını 80 qəpiyə - 1 manata satırlar. Bəzi üzüm növlərini isə fermerlər soyuducu anbarlara yerləşdirirlər.

Süfrə üzüm sortlarından ənənəvi "Təbrizi", "Bayan şirə", "Rekasiteli", "Ağ şanı", "Qara şanı", "Xəlili" və digərləri ilə yanaşı, xaricdən gətirilən və məhsuldarlığı ilə seçilən "Viktoriya" kimi sortlara da xüsusi maraq var. Mütəxəssislər bu il məhsuldarlığın yüksək olduğunu deyirlər.

Qeyd edək ki, Tovuzda 794 hektardan çox üzüm bağı var.

## Astaranın qədim tarixini özündə yaşadan Hamoşam kəndi

**Astara rayonunun yüksək dağlıq ərazisində, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə yerləşən Hamoşam yaşayış məntəqəsi İkinci Dünya müharibəsində Sovet İttifaqı Qəhrəmanı adını almış ən gənc azərbaycanlı, baş leytenant, 1945-ci il aprelin 6-da Keniqsberq şəhərinə qələbə bayrağını sancan Mirzə Cəbiyevin doğulub boya-başa çatdığı kənddir.**



Təbiət bu yerlərdən öz səxavətini əsirgəməyib: bərəkət boxçasını bütünlüklə onun üzünə açıb. Sıx meşələr, sıldırım qayalar, bulaqlar, dağ çayları bu yerlərin təbiət mənzərəsini əks etdirirsə, "Bi" yaylası, "Baba Rəsul" türbəsi yaşayış məntəqəsinin qədimliyindən xəbər verir...

AZƏRTAC xəbər verir ki, Hamoşam kəndi Bəşərü çayının sahilində, dağətəyi ərazidə yerləşir. Yaşayış məntəqəsinin adı "hamar" sözünün talış dilində tələffüz forması olan "hamo" və "şam" (çay döngəsində dairəvi ərazi) sözlərindən ibarətdir və "Hamarkənd" mənasını verir.

Hamoşam inzibati ərazi icra nümayəndəliyinə altı yaşayış məntəqəsi - Hamoşam, Reqluba, Kılinbi, Kəmləkan, Rvadıla və Toradi kəndləri daxildir. Əhalinin ümumi sayı 2600 nəfərdən çoxdur.

İcra nümayəndəliyinin ərazisində yaşayan əhalinin əksəriyyəti heyvandarlıqla, arıçılıqla məşğuldur. Əvvəllər burada kənd təsərrüfatının əsasını taxılçılıq təşkil edirdisə, hazırda heyvandarlığa daha çox üstünlük verilir.

Kənddə 100-dən çox bulaq var, onların çoxu müalicəvi əhəmiyyətlidir.

"Bi" yaylağını isə Hamoşamın tacı adlandırırlar. "Bi" sözünün toponomik mənası "soyuq yer" deməkdir. Tarixçilərin ehtimalına görə isə, "Bi" əsrlər öncə burada yaşamış tayfanın adı ilə bağlıdır, çünki burada qədim yaşayış məntəqəsinin olmasına dair nişanələr var.

"Bi" yaylağı 60 hektarlıq düzənlik ərazidən ibarətdir. Buradakı Tunc dövründən qalma kurqanlar, qədim məzarlıq, iki, üç və dördpilləli yonma baş daşları, "Padşah qızının hovuzu", "Padşah hovuzu" "Haftçəşmə" bulaqları əsrlərin nişanələridir.

Əvvəllər yaylaq yerli sakinlərin əkin sahəsi olub. Hazırda isə buradan həm otlaq sahəsi, həm də örüş yeri kimi istifadə edilir. Burada bumbuz bulaqlar başında istirahət edənlər də olur. Yaylağın "Otəşəsğonəband" hissəsindən Astaranın tarixi rəmzinə çevrilən, İranla sərhəd ərazisində, yüksək qayalar üstündə inşa edilmiş "Şindan" qalasını seyr etmək olar.

1957-ci ildə "Azərbaycanfilm" studiyasının istehsalı olan "Qızmar günəş altında" filminin bəzi epizodları "Bi" yaylağının yaxınlığında çəkilib.

Hamoşam kəndindəki maddi-mədəniyyət nümunələri olan pirlər, ziyarətgahlar Astaranın qədim tarixindən xəbər verir. "Hacı Əfqani", "Şeyx İzacəddin", "Məhəmməd Mazandarani", "Baba Rəsul" ziyarətgahları bu yerlərin tarixi yaddaşıdır.

Kənd ərazi icra nümayəndəliyinə daxil olan yaşayış məntəqələrindəki maddi-mədəniyyət nümunələrindən yalnız dördü dövlət qeydiyyatına alınıb. Onlardan ikisi - "Bi" yaylağı və "Qalakafo" qala qalıqları ölkə, ikisi - Hamoşamdakı köhnə məzarlıq və Toradi kəndindəki "Peştə" qəbiristanlığı isə yerli əhəmiyyətli arxeoloji abidə kimi dövlət qeydiyyatındadır. Lakin Hamoşamda tədqiq olunmayan onlarca qədim tarix və mədəniyyət abidələri var.

Ucqar dağlıq ərazidə yerləşən Hamoşam kəndi hazırda özünün inkişaf mərhələsini yaşayır. Kəndi rayon mərkəzi ilə birləşdirən yol dövlət vəsaiti hesabına əsaslı təmir edilərək asfaltlanıb, yaşayış məntəqəsində yeni infrastruktur yaradılıb. Burada turizmin inkişafı üçün hər cür şərait var.



# DÜNYA PANDEMİYA DÖVRÜNDƏ



# İnfeksiyanın ikinci dalğası?

## Mütəxəssislər qəti fikir söyləyə bilmirlər

**Dünyanı çənginə almış yeni tip koronavirus (SARS-CoV-2) pandemiyası can almaqda davam edir. Bəzi ölkələr zaman-zaman ümumbəşəri bəlaya qalib gəldiyini elan etsə də, sonradan baş vermis hadisələr göstərdi ki, qələbədən söz açmaq hələ çox tezdir.**



Epidemiyanın başladığı və bu yay başa çatdığı bəyan edilmiş Çində belə, əvvəllər qeyd edildiyindən az da olsa, yoluxma halları nəzərə çarpır. Əksər ölkələrdə tətbiq olunmuş karantin rejimi tədricən yumşaldılır, normal həyata qayıdış təəssüratı yaranır. Bununla belə, koronavirusun törətdiyi COVID-19 sətəlcəmindən ölənlərin sayı kəskin şəkildə azalmır. Planetin bəzi regionlarında vəziyyət nisbətən yaxşılaşır, digər bölgələrdə isə, əksinə, narahatlıq doğurur.

Hazırda söhbət koronavirus pandemiyasının yalnız birinci dalğasından gedir. İndiyədək dünyada COVID-19-a 26 milyon nəfərdən çox adam yoluxmuşdur. Onların təxminən 17 milyonu sağalmışdır. Xəstəlikdən ölənlərin sayı 900 min nəfərə yaxınlaşır.

Mütəxəssislər pandemiyanın nə qədər davam edəcəyini proqnozlaşdıra bilmirlər. Bundan əvvəl irəli sürülmüş təxminlər özünü doğrultmamışdır. Virusun mutasiyaya uğrayıb zəifləyəcəyini, yaxud insanla "yoldaşlıq" edib daim yaşayacağını güman edənlər var. Bəzi ekspertlər hesab edirlər ki, yalnız COVID-19-a qarşı vaksin tapıldıqdan sonra rahat nəfəs almaq mümkün olacaq. İndilikdə isə daha çox pandemiyanın davam edəcəyi, payızqış aylarında vəziyyətin ağırlaşacağı və xəstəliyin yayılmasının ikinci dalğasının ortaya çıxacağı ehtimal olunur.

Bəs pandemiyanın ikinci dalğasının meydana gəlməsi ehtimalı nə qədər əsaslıdır? Nə qədər qəribə olsa da, pandemiya dalğasının vahid elmi tərifi yoxdur. Bəzi ekspertlər hesab edirlər ki, epidemiyanın səviyyəsi sıfıra endikdən sonra yenidən yayılması ikinci dalğa deməkdir. Əksər mütəxəssislər isə belə bir fikirdədirlər ki, birinci dalğanın bitdiyini elan etmək üçün səlahiyyətli hakimiyyət orqanları virusu nəzarət altına almalı və yeni infeksiya hallarının sayında əhəmiyyətli azalma müşahidə edilməlidir. Yeni yoluxma hallarının sayında davamlı artım nəzərə çarpsa, ikinci dalğanın başlanması haqqında danışmaq olar. İlk infeksiyaların 24 günlük fasilədən sonra qeydə alındığı Yeni Zelandiya və koronavirussuz 50 gündən sonra yenidən epidemiya ilə qarşılaşan Pekin bu vəziyyətdə deyil.

Təxminən iki ay əvvəl bir sıra alimlər belə bir mülahizə irəli sürmüşdülər ki, bu yayın ortalarında İranda yaranmış vəziyyət ikinci dalğanın meyarlarına cavab verir. Alimlərin fikrincə, koronavirusun ikinci dalğasının başlayıbbaşlamaması hökumətlərin qəbul edəcəyi qərarlardan asılıdır. Şübhəsiz, ikinci dalğanın peyda olmaq potensialı var. Virus hələ də dövr edir, onun yayılıb öldürmək qabiliyyəti ilin əvvəlindən qətiyyən az deyil. Faktlar göstərir ki, Yer kürəsi əhalisinin əksəriyyəti hələ də infeksiya riski ilə üz-üzədir. Ümumiyyətlə, indi bütün məhdudlaşdırıcı tədbirlər qaldırılsa, bəşəriyyət fevraldakı vəziyyətə qayıdacaq. Yəni hər şey sanki yenidən başlayacaq.

İkinci dalğanın başlamasını şərtləndirən amillərə gəlincə, bu, ilk növbədə, məhdudlaşdırıcı tədbirlərin kəskin şəkildə yumşaldılmasıdır. Karantin rejimi dünya əhalisinin həyatında ciddi pozuntulara səbəb oldu: iş yerləri ixtisar edildi, insanların sağlamlığı mənfi təsirə məruz qaldı, təhsil prosesi pozuldu. Ancaq bu tədbirlər virusu nəzarət altına almağa imkan verdi.

Ən böyük problem pandemiyanın insanların gündəlik həyatında törətdiyi dağıdıcı fəsadları minimuma endirərkən nəzarəti necə qoruyub saxlamaqdır. Hələlik heç kim dəqiq bilmir ki, karantinin yumşaldılması yolunda nə qədər irəli getmək olar. Ona görə də dövlətlər ehtiyatı əldən verməyib məhdudlaşdırıcı tədbirləri mərhələ-mərhələ ləğv edirlər. Elə hallar da olub ki, dövlət yumşalmaya getdikdən sonra virusa yoluxanların sayının artdığını nəzərə alaraq yenidən karantin rejimini sərtləşdirmişdir. Vaxtilə koronavirusun yayılmasına qarşı effektiv mübarizəsi ilə seçilən Cənubi Koreya epidemiyanın yenidən baş qaldırması ucbatından bəzi məhdudlaşdırıcı tədbirləri təkrar tətbiq etməli olmuşdu.

İnsanları narahat edən başqa bir məsələ pandemiyanın ikinci dalğasının hansı gücdə olacağıdır. Ekspertlər hesab edirlər ki, ikinci dalğa nəzəri cəhətdən birincidən daha genişmiqyaslı ola bilər. Amma xəstəlik sürətlə yayılsa, ikinci dalğanı yatırmaq üçün yenidən karantin rejiminə əl atmaqdan başqa çarə qalmayacaq.

Tarixi təcrübə göstərir ki, koronaviruslar, adətən, soyuq mövsümdə daha tez yayılır. Payızda, yaxud qışda kiçicik epidemiya belə yeni dalğanın yaranması ilə nəticələnə bilər. Odur ki, hökumətlər indidən tədbirlərini görür. Son günlər açıq-aşkar müşahidə olunur ki, xüsusilə Avropada siyasətçilər və digər məsul şəxslər COVID-19-un ciddi və uzun ikinci dalğası ilə mübarizə aparmağa köklənmişlər. Almaniya hökuməti ictimai tədbirlərə qoyduğu qadağanı cari ilin sonunadək uzatmışdır. Fransanın Baş Naziri Jan Kasteks bildirmişdir ki, hökumət vaxtında reaksiya verməsə, epidemiya hədsiz dərəcədə yayılacaq. Avstriya Kansleri Sebastyan Kurtsun fikrincə, payız və qışda vəziyyət mürəkkəbləşəcək, lakin 2021-ci ilin yayında normal vəziyyətə qayıtmaq mümkün olacaq.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

● İqtisadiyyat

# COVID-19 dünya iqtisadiyyatını vurur

**Koronavirus pandemiyasının başlaması ilə bəşəriyyət indiyədək görünməmiş vəziyyətlə qarşılaşdı. COVID-19-a yoluxma hallarının çox olduğu ölkələrdə müəssisələr dərhal bağlandı, gündəlik istehlak mallarına tələbat kəskin şəkildə artdı, bazarda müəyyən məhsullar - virus əleyhinə dərmanlar, tibbi maskalar, dezinfeksiya vasitələri bahalaşdı.**

Pandemiya şəraitində bir çox vətəndaşların evlərini tərk etmək istəməməsi, bəzi ölkələrdə insanların bayıra çıxmasının qadağa edilməsi üzündən qida çatdırılması xidmətlərinə tələbat əhəmiyyətli dərəcədə artdı. Eyni zamanda koronavirus infeksiyasının kuryerlər vasitəsilə yayıla biləcəyi qorxusu yarandı.

Uzunsürən karantin istehlakın prioritetlərini dəyişdirdi: avtomobil və paltar kimi bir sıra mallara tələbat azaldı, eyni zamanda evdə çörək bişirmək üçün cihazlara, ev idmanına (idman velosipedləri) və evdə əyləncəyə (onlayn oyunlar, stolüstü oyunlar) tələbat artdı. Eləcə də ev ofisi ləvazimatına tələbat artdı, çünki bir çox iş növlərini uzaqdan, yəni evdən icra etmək lazım gəldi. Ona görə də Zoom, Microsoft Teams və onların analoqları kimi videokonfranslar üçün əlavələr populyarlıq zirvəsinə çatdı.

Pandemiyanın insan və onun ətrafı üçün törətdiyi fəsadlar bununla məhdudlaşmadı. Koronavirusun bütün dünyaya yayılması və onun qarşısını almaq üçün karantin tədbirlərinin tətbiq edilməsi ilə qlobal iqtisadiyyat ağır şok yaşamağa başladı. İstehsal II Dünya müharibəsindən bəri ən dərin tənəzzül dövrünə qədəm qoydu. Dünya Bankının proqnozuna görə, bu il planet iqtisadiyyatı orta hesabla 5,2 faiz azalacaq.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə iqtisadi fəallığın 7 faiz azalması gözlənilir, inkişaf etməkdə olan ölkələrdə isə yavaşıma orta hesabla 2,5 faiz təşkil edəcək. Adambaşına düşən gəlir bu il 3,6 faiz azala bilər ki, bu da milyonlarla adamı yoxsulluğa düçar edər. Pandemiyadan daha çox təsirlənmiş ölkələrin, həmçinin iqtisadiyyatları beynəlxalq ticarət, turizm, xammal ixracatı və xarici maliyyədən asılı olan ölkələrin vəziyyəti daha ağır olacaq.

Bu il avrozonada istehsalın 9,1 faiz azalacağı gözlənilir, çünki koronavirusun geniş yayıldığı böyük ölkələrdə işgüzar fəaliyyətə sarsıdıcı zərbə dəymişdir. Cari ildə ABŞ ÜDM-in 6,1faizini itirə bilər: Birləşmiş Ştatlar koronavirusdan ən çox zərər çəkən ölkələrdəndir və pandemiya ilə mübarizə tədbirləri onun büdcəsinə baha başa gəlmişdir. Proqnoza görə, Yaponiya iqtisadiyyatı da ÜDM-in 6,1 faizindən məhrum olacaq: burada profilaktik tədbirlər iqtisadi fəallığın yavaşıması ilə nəticələnmişdir.

Şərqi Avropa və Mərkəzi Asiyada iqtisadiyyatın 4,7 faiz azalaçağı gözlənilir, özü də tənəzzül bu regionların, demək olar ki, bütün ölkələrlərində yaşanacaq. Belə ki, Rusiyada ilin yekunlarına görə, iqtisadiyyat, çox güman, 6 faiz azalacaq. İtki yalnız 2021-ci ilin sonunadək qismən kompensasiya olunacaq: Dünya Bankının ekspertləri Rusiya iqtisadiyyatının gələn il 2,7 faiz artacağını proqnozlaşdırırlar.

Belarus və Ukraynada ÜDM-in həcmi müvafiq olaraq 4 faiz və 3,5 faiz azalacaq, 2021-ci ildə isə artım 1faiz və 3 faiz səviyyəsində proqnozlaşdırılır. Qazaxıstan və Qırğızıstan cari ildə ÜDM-in müvafiq olaraq 3 faiz və 4 faizini itirəcək və bu ölkələrdə artım 2021-ci ildə 2,5 və 5,6 faiz səviyyəsində bərpa olunacaq.

İlin yekunlarına görə, Mərkəzi Asiyanın yalnız iki ölkəsi - Türkmənistan və Özbəkistan mənfi nəticə göstərməyəcək. Dünya Bankı Türkmənistanda artımın bu il sıfıra, gələn il isə 4 faizə bərabər olacağını proqnozlaşdırır. Özbəkistan iqtisadiyyatı isə cari ilin nəticələrinə görə, az da olsa (1,5 faiz), artacaq, növbəti ildə isə 6,6 faizlik artım nümayiş etdirəcək.

BMT-nin dünya iqtisadiyyatının gələcəyi ilə bağlı proqnozları son dərəcə bədbindir. Təşkilatın baş katibi Antonio Quterreş bu il mayın axırlarında xəbərdarlıq etmişdi ki, lazımi qabaqlayıcı tədbirlər görülməsə, koronavirus pandemiyası dünya iqtisadiyyatı üçün fəlakətli nəticələrə gətirib çıxarar. O, qeyd etmişdi ki, dünya ÜDM-in həcmi 8,5 trilyon dollar azala bilər. Baş katib əlavə etmişdi ki, vəziyyət mürəkkəb və təhlükəlidir, ona görə də bu dövrü "əzmkarlıq, ciddiyyət və məsuliyyətlə keçməliyik".

Quterreş belə bir məqamı nəzərə çarpdırmışdı ki, koronavirus pandemiyasının doğurduğu fəsadlar bəşər övladlarına misli görünməmiş faciə yaşada bilər: "Əgər indi



hərəkət etməsək, koronavirus pandemiyası bütün dünyada ağla gəlməyən dağıntılara və məhrumiyyətlərə səbəb olacaqdır. Aclıq tarixi miqyasa çatacaq. Daha 60 milyon nəfərdən çox adam ifrat yoxsulluq içində olacaq. Dünyanın bütün əmək ehtiyatlarının yarısına qədəri - 1,6 milyard nəfər qazancsız qalacaq".

BMT Baş katibinin xəbərdarlığı kifayət qədər ciddidir. Doğrudur, bu yayın ortalarından bəri dünya iqtisadiyyatı yenidən işə düşmüşdür. Cində müəssisələr açılmış, iqtisadi fəallıq artmağa başlamışdır. İnkişaf etmiş ölkələr iqtisadi böhrandan çıxmaq üçün planlar hazırlayıb həyata keçirir. Lakin inkişaf etməkdə olan ölkələrin və yoxsul ölkələrin vəziyyəti ağır olaraq qalır. Həmin ölkələrin bir çoxunda yaşayış səviyyəsinin get-gedə aşağı düşəcəyi, nəticədə sosial problemlərin kəskinləşəcəyi, cəmiyyətlərdə qarşıdurmanın güclənəcəyi, yoxsulluğun pik həddə çatacağı gözləniləndir. Bu səbəbdən belə ölkələrin bəzilərinin çökəcəyi proqnozlaşdırılır.

● Neft



# Dünya neft bazarında vəziyyət hələ ki sabitdir

**Koronavirus pandemiyası ilə əlaqədar Çində və daha sonra bütün dünyada müəssisələrin dayanması üzündən neft və neft məhsullarına tələbat əhəmiyyətli dərəcədə azaldı. Tələbin azalması fonunda Rusiya və OPEC neft hasilatının azaldılması barədə razılığa gələ bilmədilər və karbohidrogen bazarında qiymət müharibəsi başladı ki, bu da öz növbəsində neftin ucuzlaşmasına gətirib çıxardı.**

Qeyd etmək lazımdır ki, dünya neft bazarında yaranmış vəziyyət Rusiya ilə Səudiyyə Ərəbistanı arasında cari ilin əvvəllərində başlamış ixtilafdan qaynaqlanır. Martın 6-da Moskva və Ər-Riyad neftin qiymətinə münasibətdə gələcək fəaliyyət barədə razılaşma əldə edə bilmədilər. Rusiya neft hasilatının səviyyəsini qoruyub saxlamağı təklif edir, Səudiyyə Ərəbistanı isə koronavirus üzündən hasilatı azaltmağa tərəfdar çıxırdı. OPEC hasilatı cari ilin axırınadək gündə 1,5 milyon barel azaltmağı təklif etmiş, Rusiya isə bu təklifi qəbul etməmişdi. İki tərəf sazişə gələ bilmədiyindən neftin qiyməti dərhal 30 faiz aşağı düşmüşdü. Beləliklə, aprel ayından etibarən neft hasilatına tətbiq olunmuş bütün məhdudiyyətlər aradan qaldırıldı.

Bütün bunların nəticəsi olaraq "qara qızıl"ın qiyməti düşməkdə davam etdi. Dünya neft bazarında vəziyyətin getgedə ağırlaşdığını görən hasilatçılar əl-ayağa düşüb yenidən bir araya gəlməyə məcbur oldular. Belə ki, Rusiya Səudiyyə Ərəbistanının hasilatı azaltmaq təklifini rədd edəndən sonra Ər-Riyad hasilatı xeyli artırmış və Moskva gözləmədiyi vəziyyətə düşmüşdü. Rus rublu dəyərini nəzərəçarpacaq dərəcədə itirmişdi. Rusiyanın, eləcə də digər böyük neft istehsalçılarının hasil etdiyi nefti yerləşdirməyə boş anbarları qalmamışdı. Səudiyyə Ərəbistanının isə əsas gəlir mənbəyi neft sənayesidir. ABŞ-ın özü də dünya neft bazarında yaranmış vəziyyətdən narahat idi. Xüsusilə "qara qızıl"ın qiymətinin qısa müddət ərzində iki dəfə aşağı düşməsi Amerikanın neft şirkətlərini çətin vəziyyətə salmışdı. Xüsusilə şist neft çıxaran şirkətlərin maliyyə vəziyyəti ağırlaşdığından onlar iflasla üz-üzə qalmışdılar. Ona görə də Səudiyyə Ərəbistanı ilə Rusiyanın neft hasilatının azaldılması məsələsində razılığa gəlməyəcəyi təqdirdə Vaşinqtonun hər iki ölkəyə münasibətdə sanksiya silahını işə salacağı istisna olunmurdu.

Bütün bunlar nəzərə alınaraq OPEC+ ölkələri nazirlərinin bu il aprelin 9-da və 12-də keçirilmiş görüşlərinin yekunlarına görə qəbul edilmiş və gündəlik xam neft hasilatının may-iyunda 9,7 milyon barel, iyul-dekabrda 7,7 milyon barel, 2021-ci ilin yanvarından 2022-ci ilin aprelinədək isə 5,8 milyon barel azaldılmasını nəzərdə tutan əməkdaşlıq bəyannaməsi imzalandı.

Neft bazarında vəziyyəti sabitləşdirmək, qiymətin mümkün qədər yüksəlməsinə nail olmaq üçün qəbul edilmiş qərarlar zaman keçdikcə öz müsbət təsirini göstərdi. Bazarda tələblə təklif arasında fərq azalmağa başladı. Bu işdə Çin iqtisadiyyatının açılması əhəmiyyətli rol oynadı. Nəhayət, neftin qiyməti tədricən qalxaraq hazırda 45 dollar/barel civarında bərqərar olmuşdur. Ekspertlər hesab edirlər ki, bu qiymət indiki mərhələdə qənaətbəxşdir və "qara qızıl"ın yaxın aylarda bahalaşmasını gözləmək yersizdir.

Bununla yanaşı, dünya neft bazarında sabitliyin bundan sonra qorunub saxlanacağını proqnozlaşdırmaq çətindir. "Əlahəzrət" koronavirus hələ də iş başındadır və onun bundan sonra özünü necə aparacağını müəyyənləşdirmək mümkün deyil. Ona görə də payız-qış dövrünü gözləmək lazım gəlir. Yəqin ki, virus "qəzəblənib özündən çıxmasa", neft bazarında elə bir sarsıntı müşahidə edilməyəcək.

# Binəli Yıldırım koronavirusa yoluxdu

**Türkiyə Respublikasının sonuncu Baş Naziri Binəli Yıldırım və həyat yoldaşı Səmihə Yıldırım koronavirusa yoluxmuşlar. Bu barədə yerli KİV xəbər verir.**



Bir müddət əvvəl doğulduğu Erzincan vilayətinə gedən Yıldırım və xanımı Ankaraya qayıtdıqdan sonra özlərini pis hiss etmişlər. Dərhal xəstəxanaya müraciət edən sabiq Baş Nazir və xanımının verdiyi COVID-19 testinin nəticəsi pozitiv çıxmışdır. 64 yaşlı Binəli Yıldırım və Səmihə xanım həkim nəzarətinə götürülmüşlər.

# Berluskoni koronavirus xəstəxanasına yerləşdirildi



**Koronavirusa yoluxmuş İtaliyanın keçmiş Baş Naziri Silvio Berluskoni Milan şəhərindəki "San Raffaele" klinikasına yerləşdirilmişdir. Bu barədə "RAİ News 24" telekanalı xəbər verir.**

Məlumata görə, siyasətçi əlavə analizlərə ehtiyac olduğu üçün xəstəxanaya düşmüşdür.

Berluskoninin COVID-19-a yoluxması sentyabrın 2-də məlum olmuşdur. O, xəstəliyi simptomsuz keçirir.

# Ukrayna koronavirus infeksiyasında antirekord vurdu

**Ukraynada COVID-19 infeksiyasına gündəlik yoluxma hallarının sayına görə yeni antirekord qeydə alınmışdır. Bu barədə Milli Təhlükəsizlik və Müdafiə Şurasının (MTMŞ) koronavirus epidemiyasının yayılmasının monitorinqi sistemi məlumat vermişdir.**



2723 yeni yoluxma faktı laboratoriyada təsdiqlənmişdir. Əvvəlki rekord (2495 yoluxma halı) sentyabrın 2-də müəyyən olunmuşdur.

Ölkədə yeni tip koronavirusa yoluxanların sayı 130951 nəfərə çatmışdır. Onlardan 60613-ü sağalmış, 2761-i vəfat etmişdir. MTMŞ-in katibi Aleksey Danilov vətəndaşlara xəbərdarlıq etmişdir ki, karantin qaydalarına riayət etməsələr, ölkədə COVID-19-a yoluxma hallarının sayı gələn ayın 25-dək 360 minə çatacaq.

● Tədqiqat

# Vaksin axtarışında

**Məlum olduğu kimi, COVID-19-u cilovlamağın yeganə yolu müvafiq vaksinin hazırlanması və onun dünya əhalisi üçün əlçatan olmasıdır. Pandemiya başlayandan bəri bir çox ölkələrin alimləri bu istiqamətdə tədqiqat aparırlar. Artıq ilkin nəticələrdən danışmaq mümkündür.**




Vaksin axtarışında əldə olunan uğurlar barədə zaman-zaman xəbərlər yayılır. Ötən ayın 11-də Rusiya Prezidenti Vladimir Putin elan etmişdi ki, onun ölkəsi dünyada ilk koronavirus vaksinini qeydiyyatdan keçirmişdir. Onun dediyinə görə, "Sputnik V" adlanan vaksin bütün zəruri yoxlamalardan keçmiş, onun kifayət qədər effektiv işlədiyi, dayanıqlı immunitet yaratdığı təsdiqlənmişdir. Putin məlumat vermişdi ki, onun qızlarından biri COVID-19-dan peyvəndlənmişdir. Bir müddət sonra Rusiya Səhiyyə Nazirliyi bəyan etmişdi ki, vaksin qeydiyyata alındıqdan sonra aparılan tədqiqat işləri ilin sonunadək başa çatacaq. Rusiyadan daxil olan son məlumata görə, bu ölkə koronavirusa qarşı bir milyard doza vaksin almaq üçün 20-dən çox ölkədən sifariş qəbul etmişdir. Eyni zamanda Rusiya beş ölkədə vaksin istehsalı barədə razılaşma əldə etmişdir ki, bu da ildə 500 milyon doza istehsal etməyə imkan verəcək.

Lakin koronavirus infeksiyası vaksinin hazırlanması sahəsində Rusiya tərəfinin səsləndirdiyi nikbin bəyanatlar dünya tibb ictimaiyyətində bədbin reaksiya doğurmuşdur. Məsələn, Almaniyanın Səhiyyə naziri Yens Şpan bildirmişdir ki, COVID-19-a qarşı rus vaksini kifayət qədər klinik sınaqdan keçməmişdir. Nazir qeyd etmişdir ki, ilk vaksinin effektiv olmasına sevinərdi, lakin onun fikrincə, effektivlik vaksin haqqında verilən məlumatlara əsaslanmalıdır: "Əsas problem məhz rusların bizə vaksin barədə az danışmasıdır. Vaksin kifayət qədər testdən keçirilməmişdir". Şpan vurğulamışdır ki, insanların vaksinə güvənməsi üçün lazımi araşdırma və testləşdirmə aparılmalı, nəticələr dərc edilməlidir.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) da Rusiya vaksininə ehtiyatla yanaşır. ÜST nümayəndələrinin fikrincə, yeni preparatın təhlükəsiz olması və effektivliyi barədə bütün məlumatlar diqqətlə yoxlanılmalıdır.

Vaksinin hazırlanmasında ayrı-ayrı ölkələrin mütəxəssislərinin əməkdaşlığı təqdirəlayiqdir, çünki nəzərdən qaçırmaq olmaz ki, yeni tip koronavirus bütün bəşəriyyəti təhdid edir. Tədqiqat işlərini ÜST dəstəkləyir. Lakin ABŞ bu təşkilatın sıralarında fəaliyyətini dayandırdığından COVID-19 əleyhinə vaksinin hazırlanması və yayılması naminə beynəlxalq səylərdə iştirak etməkdən boyun qaçırır. Məlumat üçün qeyd edək ki, ÜST-ün dəstəklədiyi doqquz vaksin-namizədin üçü ABŞ-a məxsusdur.

# Şamil AYRIM: "Azərbaycan Prezidentinin Türkiyəyə dəstəyi qardaş həmrəyliyinin ən gözəl nümunəsidir"

Azərbaycan Prezidenti İlham Əliyev Yunanıstanın yeni səfirinin etimadnaməsini qəbul edərkən Şərqi Aralıq dənizində baş verən proseslər də daxil olmaqla, hər mövzuda Türkiyəni dəstəklədiyini açıq şəkildə bəyan etdi, Ermənistan, Yunanıstan və Kipr arasındakı üçtərəfli hərbi əməkdaşlığın narahatlıq doğurduğunu bildirdi.



Azərbaycanın Türkiyəni hər zaman dəstəklədiyi hər kəsə bəllidir. Bu münasibətlər bir millət, iki dövlət olan Azərbaycan ilə Türkiyə arasında əsrlərboyu davam edən qardaşlıq bağlarının növbəti nümunəsidir". Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım bildirib.

Şamil Ayrım deyib: "Dövlət başçısının həmin görüşdəki bəyanatı Türkiyə ilə Azərbaycan arasında möhkəm birliyi əks etdirən bir bəyanat idi. Bu, qardaş həmrəyliyinin ən gözəl nümunəsidir. Bunun üçün Prezident İlham Əliyevə Türkiyə xalqı adından dərin təşəkkürümü bildirirəm. Bütün dünyanın çətinliklərlə üzləşdiyi bu günlərdə biz sıx qardaşlıq bağlarını bir daha bütün dünyaya nümayiş etdirdik. Bu gün Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan arasındakı qardaşlıq münasibətləri dünya liderləri üçün bir nümunədir. Onlar həqiqətən də dünyaya qardaşlıq və birlik dərsi keçirlər. Azərbaycanla Türkiyə hər zaman tərəddüdsüz bir-birini dəstəkləyib və dəstəkləyəcək".

# Astarada 13 km uzunluğunda yeni xətt istifadəyə verilib







**"Azərişıq" ASC istehlakçıların fasiləsiz, dayanıqlı və keyfiyyətli elektrik enerjisi ilə təmin olunması məqsədilə ölkəmizin digər bölgələrində olduğu kimi, Cənub Regional Enerji Təchizatı və Satışı İdarəsinin xidməti ərazisində də geniş quruculuq işlərini davam etdirir.**

Astara Elektrik Şəbəkəsinin ərazisində ümumi uzunluğu 13 km olan 10 kV-luq xəttin çəkilişi həyata keçirilib. Bu isə ümumilikdə 14 kənddə 5 minədək sakinin elektrik enerji təchizatının yaxşılaşdırılması deməkdir. Təchizatın yaxşılaşdırılması bu istiqamətdə böyük həcmdə itkilərin də qarşısını almış olacaq.

Hər il müşahidə edilən sel, güclü qar və külək 50 ildən çoxdur ki, istismar olunan 10 kV-luq bu xətdə tez-tez qəzaların baş verməsinə səbəb olurdu. Məhz təbiət hadisələri səbəbindən dayaqlar dəfələrlə yıxılıb və onların yerinə müvəqqəti dayaqlar basdırılıb. Həmçinin qabaritlər pozulub, naqil keyfiyyətini itirib, nəticədə əhali və digər abonentlər saatlarla işıqsız qalıb. Bundan sonra Astaranın ən ucqar 14 dağ kəndləri - Hamoşam kənd İcra Nümayəndəliyinin Klımbi, Hajuvi, Hamuşam, Qədəband, Toradi, Kavüəkər, Rıqulbə kəndləri, Əsxənəkəran kənd İcra Nümayəndəliyinin Əsxənəkəran, Əzərüd, Rüədılə, Şexonpeştə, Motlayataq, Overud, Vıləpərqu kəndləri daha keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin olunacaq.

# Əmlak Məsələləri Dövlət Xidmətinin Abşeron ərazi şöbəsinin rüşvət almaqda şübhəli bilinən vəzifəli şəxsləri ilə bağlı cinayət işi başlanıb

Təkmil torpaq bazarının formalaşdırılması və torpaq resurslarından səmərəli istifadə ölkə iqtisadiyyatının və aqrar sektorun dayanıqlılığını şərtləndirən əsas hədəflər sırasında olmaqla bu strateji sahə üzrə münasibətləri tənzimləyən dövlət siyasətində mütərəqqi və sistemli yanaşma tətbiq olunmaqdadır.

Bununla yanaşı, bəzi hallarda ayrı-ayrı vəzifəli şəxslər tərəfindən bu sahədə vətəndaşlarla dövlət arasında olan nizamlı ictimai münasibətlərə qəsd edən qanunsuz hərəkətlərə də təsadüf olunur ki, belə halların aşkara çıxarılaraq kəsərli təsir tədbirlərinin görülməsi istiqamətində Azərbaycan Respublikasının prokurorluq orqanlarının intensiv fəaliyyəti davam etdirilir.

Baş Prokurorluğun və İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, belə tədbirlərdən biri kimi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Abşeron ərazi şöbəsinin vəzifəli şəxsləri tərəfindən vətəndaşa məxsus Abşeron rayonu Mehdiabad kəndində yerləşən kənd təsərrüfatı təyinatlı torpaq sahəsində aparılmış qanunsuz tikintiyə görə cərimə edilməməsi və gələcəkdə həmin tikintinin sökülməməsi müqabilində ondan 1000 manat məbləğində pul tələb edilməsi barədə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinə daxil olmuş məlumat əsasında təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib.

İqtisadiyyat Nazirliyinin aidiyyəti qurumu ilə birgə keçirilmiş əməliyyat tədbiri nəticəsində sentyabrın 2-də Əmlak Məsələləri Dövlət Xidmətinin Abşeron ərazi şöbəsinin rəisi Poladov Anar Tofiq oğlu həmin şöbənin inzibati binasında qabaqcadan əlbir olduğu həmin şöbənin baş məsləhətçisi Səbuhi Rzayevin tələb etdiyi 1000 manat məbləğində rüşvətin 900 manatını vətəndaşdan alarkən cinayət başında yaxalanıb. Fakta görə, Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanaraq istintaqı aparılır.

İş üzrə toplanmış ilkin sübutlar əsasında Anar Poladov və Səbuhi Rzayev Cinayət Məcəlləsinin 311.3.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin müvafiq qərarları ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda təqsirləndirilən şəxslərin fəaliyyətində başqa qanun pozuntularına yol verilib-verilməməsinin araşdırılması istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlara Baş Prokurorluğun 961 nömrəli Çağrı Mərkəzinə və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 161 - Qaynar Xətt əlaqə mərkəzinə məlumat verilməsini tövsiyə edir.

# "AzerGold" QSC-də qanvermə aksiyası keçirilib

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətində (QSC) könüllü qanvermə aksiyası təşkil edilib. "AzerGold" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, cəmiyyətin əməkdaşları irsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən uşaqlara dəstək olmaq və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə könüllü olaraq qan veriblər.**




Milli Hematologiya və Transfuziologiya Mərkəzinin həkim-hematoloqları tərəfindən hər bir donorun sağlamlığı əvvəlcədən müəyyən olunub və hərtərəfli tibbi müayinədən sonra donorlardan qan götürülüb. Götürülən qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlar üçün istifadə olunacaq.

Qeyd edək ki, qan çatışmazlığı həyatları qandan asılı olan irsi qan xəstələri və təcili əməliyyata ehtiyacı olanların həyatda qalmaları üçün risk yaratdığını nəzərə alaraq "AzerGold" QSC insanların həyatlarını xilas etmə yönündə bu nəcib təşəbbüsə növbəti dəfə qoşulmuşdur. Xatırladaq ki, cari ilin aprel ayında da cəmiyyətin əməkdaşları tərəfindən könüllü qanvermə aksiyası təşkil edilmişdir.

# Paşinyan rejimi faşizmə xidmət edir

## Terrorçuya ehtiram göstərmək Ermənistanın dövlət siyasətidir

Əvvəli 1-ci səh.

Digər faşistə - Njdeyə isə xüsusi diqqət yetirilir. Ermənistan paytaxtında meydanlardan birinə və metro stansiyasına onun adı verilmişdir. Njdenin, eləcə də Dronun şərəfinə xatirə sikkələri kəsilmişdir. Dəhşət doğuran hal odur ki, "njdeizm" adı altında irqçi ideologiya Ermənistanda orta və ali məktəb proqramlarına daxil edilmişdir və gənc nəsil bu ruhda tərbiyə edilir.

Elə Nikol Paşinyan özü də çıxışlarında dəfələrlə Njdeni tərifləyib. Çünki baş nazirin babası da 1943-cü ildə nasist Almaniyası sıralarında, daha dəqiq desək, SS-in legionunda Qaregin Njde ilə çiyin-çiyinə döyüşüb. Bu mənada Paşinyanın faşizm sevgisi təsadüf sayılmır. Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra nasist Njdeyə Yerevanda ucaldılmış abidəni nəinki götürtmək niyyətinə düşdü, əksinə onun təbliğatını genişləndirdi.

Xatırladaq ki, Nikol Paşinyan 9 may ərəfəsində öz babası - Nikol Paşinyan barədə məlumatlar paylaşıb və onun Böyük Vətən müharibəsində iştirak etmiş qəhrəman olduğunu demişdi. Amma tezliklə bir çox nüfuzlu media orqanlarında dərc edilən sənədlər əsasında məlum olub ki, baş nazirin babası almanlar tərəfində döyüşüb, başqa sözlə, düşmən tərəfə keçib və nəticədə həlak olub. Dəfn kağızında Nikol Paşinyanın tərcümeyi-halı ilə bağlı bir çox faktlar əks olunub. Kağızda göstərilib ki, o, 29 sentyabr 1943-cü ildə həlak olub, ölüm səbəbi qarın nahiyəsində olan güllə yarasıdır. 1943-cü ildə erməni legionu vermaxta tabe olurdu və onun batalyonları SS strukturlarında təlim keçirdi. Legion əsasən erməni millətinə mənsub hərbi əsirlərdən təşkil olunmuşdu. Əksər vaxtlarda bu, könüllü əsaslarda təşkil olunurdu. Amma bu, legioner Nikol Paşinyana şamil edilmir. Dəfn kağızına əsasən demək olar ki, o, könüllü şəkildə döyüşüb və xüsusi canfəşanlıqla özünü göstərib. Bu, Ermənistanın faşizm ideologiyasına xidmət etməsini bir daha sübut edir. Görünən budur ki, Ermənistanda faşistlərin ideallaşdırılması həyat norması kimi qəbul edilir. Bunlar bir daha təsdiq edir ki, Ermənistanda faşizm ideologiyası, etnik təmizləmə və terrorizm dövlət siyasətinə çevrilib.

Azərbaycan və Ermənistanın faşizmə yanaşması fərqlidir. Azərbaycan bunu pislədiyi halda Ermənistan faşizmi ideologiya olaraq seçməkdən çəkinmir. Bu, həm də onu sübut edir ki, Ermənistanın baş naziri birbaşa babasının və soyqırımı ideologiyasının erməni banilərinin mirasını davam etdirir. Ermənistanla yanaşı, müxtəlif ölkələrə səpələnmiş erməni diasporu da Njdenin timsalında faşizmin qəhrəmanlaşdırılması istiqamətində çalışır, bəzi şəhərlərdə nasist cəllada abidələr ucaldıblar.

Hazırda Ermənistan işğalçı və şovinist siyasət aparmaqla beynəlxalq və regional təhlükəsizlik, bölgədə sülhün və sabitliyin təmin olunması üçün ciddi təhdid yaradır. Ermənistan tarixi saxtalaşdırmaq şousundan, ölkəmizə qarşı əsassız ərazi iddialarından əl çəkməli, beynəlxalq hüququn tələblərini yerinə yetirərək işğal etdiyi Azərbaycan ərazilərini tərk etməlidir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi

### *açıq tenderə dəvət edir*

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi üçün anbar sahəsinin icarəsi xidmətinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 50 (əlli) manat**

**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (31.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (31.08.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovunun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **24.09.2020-ci il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **02.10.2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **05.10.2020-ci il saat 15:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının ərazisində 3-cü tədris korpusunun tikinti işlərinin aparılması məqsədilə keçirilən açıq elektron

### *tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: səmərəli tender təklifi, yüksək keyfiyyət, təmir sahəsində iş təcrübəsi, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 2000.00 (iki min) manat**
**BANKIN ADI: KAPİTAL BANKIN GƏNCLİK FİLİALI**
**KOD: 200189**
**VÖEN: 9900003611**
**MÜXBİR HESABI: AZ37NABZ01350100000000001944**
**SWIFT BİK: AIIBAZ2X**
**TƏŞKİLAT: AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASI**
**H/HESABI: AZ20AIIB38090019440138430118**
**VÖEN: 1500374911**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi(təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müvafiq texnikanın işlək vəziyyətdə mövcudluğu, işçi qüvvəsinin olması;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (notarial qaydada təsdiq edilmiş);*
- *iddiaçının müvafiq fəaliyyət növünün həyata keçirilməsi üçün lisenziyaya və ya icazəyə malik olması, müvafiq mallar və xidmətlər üzrə mənşə və uyğunluq sertifikatlarının olması;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **25 sentyabr 2020-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **05 oktyabr 2020-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **06 oktyabr 2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**

Xüsusi texnika vasitəsi ilə xidmətlərin satın alınması. Tender iştirakçıları **https://www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzalar vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübə, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri olan potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər:

**İştirak haqqı - 200 AZN**
**"Təmiz Şəhər" ASC**
**VÖEN: 1301914311**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142330**

**İştirak üçün ödənilən vəsait heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25 sentyabr 2020-ci il saat 15:00-a** qədər, tender təklifi və bank təminatını isə **05 oktyabr 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **06 oktyabr 2020-ci il saat 15:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Milli Məclisi
## *açıq tender elan edir*

Azərbaycan Respublikasının Milli Məclisi dəftərxana ləvazimatlarının satın alınması məqsədilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq açıq tender elan edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə (bundan sonra - Portal) **https://www.etender.gov.az** elektron formada təqdim etsinlər.

**Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:**

- satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;
- satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyətinin olması;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması.

Tenderdə iştirak etmək istəyən təşkilatlar predmet üzrə müəyyən edilən məbləğdə iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 200 (iki yüz) manat**

**Satınalan təşkilat: Azərbaycan Respublikasının Milli Məclisi**
**VÖEN: 1700235621**
**Hesab №: AZ39CTRE00000000000001018501**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**Ödənişin təyinatı mütləq yazılmalıdır.**
**Təyinatı: Tenderdə iştirak haqqı**

**Azərbaycan Respublikasının Milli Məclisi**
**XHK: 1018501**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142330**
**Büdcə səviyyəsinin kodu: 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

1. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
2. Tender təklifi (tender təklifləri zərflərin açıldığı gündən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
3. Tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);
4. Malgöndərən haqqında tələb olunan sənədlər aşağıdakılardır:

- malgöndərənin tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- malgöndərənin son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti barədə bank sənədi;
- malgöndərənin ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlər şəklində və formalarda təqdim olunmalıdır);
- vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayışlar;
- fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **25 sentyabr 2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **05 oktyabr 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan təkliflər Portal vasitəsilə qəbul olunmayacaqdır. İddiaçıların təklifləri **06 oktyabr 2020-ci il saat 15:00-da** açılacaqdır.

***Əlaqələndirici şəxs:*** Möhbalı Cavid Xaliq oğlu
***Əlaqə telefonu:*** (012) 492-31-26
***E-poct ünvanı:*** tender@meclis.gov.az
***Ünvan:*** Bakı şəhəri, Səbail rayonu, Parlament pr.,1, Milli Məclis

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"
## *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*4 aylıq*
**41,60 (qırx bir manat altmış qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*1 aylıq*
**10,40 (on manat qırx qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 08.09.2020-ci il tarixdə saat 22:00-dan etibarən bir neçə saat ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 13 may 2020-ci il tarixdə vahid satınalma Portalında elan edilmiş "İstismarda olan dizel generator qurğuları üçün ehtiyat hissələrinin satın alınması" üzrə keçirilmiş açıq tender prosedurunun qalibi "KM Services" MMC müəyyən edilmişdir.

"Aztelekom" MMC ilə "KM Services" MMC arasında 28 iyul 2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyətinin təsərrüfat sahələrində yaşıllaşma işlərinin aparılması, əkilmiş ağac və bitkilərə qulluğun göstərilməsi xidmətlərinin satın alınması məqsədilə "Təmiz Şəhər" ASC tərəfindən keçirilmiş açıq tenderdə ən az qiymət təklifi vermiş "YAŞIL VADİ-RMP" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 186.310,20 manat məbləğində 28 avqust 2020-ci il tarixli müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Pedaqoji Universitetinin 10.08.2020-ci il tarixdə elan olunmuş digər maşın avadanlıqları müsabiqəsi "Dövlət satınalmaları haqqında" qanunun 11-ci maddəsinin 11.1 bəndinə əsasən ləğv edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının 01.09.2020-ci il tarixdə dərc olunmuş açıq tender elanında LOT-1 "Sair torpaq, tikili və avadanlıqlar" (bərk inventarların satın alınması) LOT-2 "Digər maşın və avadanlıqları" (Avadanlıqların satın alınması) kimi oxunmalıdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 04.07.2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və ərazi idarələrinin inzibati binalarında istismar olunan isitmə-soyutma-havalandırma, su-kanal sistem və avadanlıqlarına texniki xidmətin satın alınmasına dair tender üzrə Tender komissiyasının 26 avqust 2020-ci il tarixli qərarına əsasən "ESTET" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az Portalında 08.07.2020-ci il tarixdə elan edilmiş LTE modemlərin (3000 ədəd) satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "MARK KEYTRİNQ" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "MARK KEYTRİNQ" MMC arasında 01.09.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetinin 17.04.2020-ci il tarixli sayında dərc edilmiş LOT 1: "Kondisionerlərin alınması" prosedurunun qalibi "ABC-TELECOM" MMC müəyyən edilmişdir.

"Azərpoçt" MMC və "ABC-TELECOM" MMC arasında 28.08.2020-ci il tarixdə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Etender.gov.az Portalında 02.07.2020-ci il tarixdə elan edilmiş xətt təsərrüfatında istifadə olunacaq plan-profilaktik işlər üçün mal-materialın satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "AB-DƏMİR BETON" Məhdud Məsuliyyətli Cəmiyyəti müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "AB-DƏMİR BETON" Məhdud Məsuliyyətli Cəmiyyəti arasında 01.09.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Sosial Tədqiqatlar Mərkəzi" PHŞ tərəfindən 28.08.2020-ci il tarixdə "mətbəə xərcləri" maddəsi üzrə hesabat jurnallarının satın alınması ilə əlaqədar verilmiş kotirovka sorğusu elanına əsasən bir müəssisə tərəfindən təklif daxil olduğundan kotirovka sorğusu baş tutmamış hesab olunur.

***Tender komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi İqtisadiyyat Nazirliyinin Sahibkarlığın inkişafı siyasəti və tənzimlənməsi şöbəsinin müdiri Elçin İbrahimova anası

**LƏTİFƏ İBRAHİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təlatüm Quliyev ailəsi ilə birlikdə yaxın dostu Əli Əlizadəyə anası

**GÜLSƏNƏM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı şəhəri 6 saylı Vəkil Bürosunun kollektivi vəkil Nəsib Əhmədova atası

**AĞA MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7386
Sifariş 2061
Qiyməti 40 qəpik